**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**SEVİNC ZAKİR qızı ABBASOVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFINDA QADINLARIN ROLU (1970-2015-ci illər)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**NAXÇIVAN – 2017**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **İsmayıl Muxtar oğlu Hacıyev**
Tarix üzrə elmlər doktoru,
professor, AMEA-nın həqiqi üzvü

**Rəsmi opponentlər:** **Oqtay Balaqədəş oğlu Sultanov**
Tarix üzrə elmlər doktoru, professor

**Havva İsa qızı Məmmədova**
Tarix üzrə elmlər doktoru, professor

**Şikar Məhəmmədəli oğlu Qasımov**
Tarix üzrə elmlər doktoru, professor

**Aparıcı müəssisə:** AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan sovet dövrü tarixi" və "Azərbaycan Respublikası tarixi" şöbələri

Müdafiə "30" sentyabr 2017-ci il tarixdə saat $11^{00}$-da AMEA-nın Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin Elektron kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" iyun 2017-ci ildə göndərilmişdir.

**D.01.211 Dissertasiya**
**Şurasının elmi katibi:** **E.A.ŞIXƏLİYEV**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. XX əsrin son onilliyindən etibarən ideoloji buxovlardan qurtulmuş Azərbaycanın tarix elmi qarşısında Vətən tarixinin müxtəlif problemlərinin və mövzularının obyektiv və hərtərəfli öyrənilməsi üçün geniş üfüqlər açılmışdır. Ölkəmizin ən yeni tarixinin digər tədqiqat istiqamətləri ilə yanaşı, Azərbaycan SSR-də və müstəqil Azərbaycan Respublikasında qadın siyasətinin və qadın hərəkatının müxtəlif aspektlərinin, gender münasibətlərinin transformasiya proseslərinin araşdırılması ciddi elmi maraq doğurur. Respublikanın həyatında, cəmiyyətdə gedən proseslərdə, ictimai inkişafda qadınların rolu və iştirakı son dövrlərdə durmadan artmaqdadır. Uzun illər boyu unudulmuş, üzərindən sükutla keçilmiş qadınların Azərbaycan tarixində layiq olduqları yerlərinin bərpa edilməsi, onların tarixinin gender bərabərliyi nöqteyi-nəzərindən yenidən yazılması, tarixin müxtəlif dönəmlərində onların ictimai status və mövqelərinin dəyişməsinin öyrənilməsi heç şübhəsiz, ictimai və humanitar elmlər qarşısında duran ən aktual tədqiqat vəzifələrindəndir. Həmçinin unutmamalıyıq ki, müasir dövrdə modernləşmə prosesini yaşayan ölkəmizdə hüquqi dövlət, demokratik cəmiyyət, yeni iqtisadi münasibətlər sistemi quruculuğunun davam etdiyi, Azərbaycanın qlobal dünya siyasəti arxitekturasında özünü inamla təsdiq etdiyi bir şəraitdə qadınların cəmiyyətdəki rolunun yüksəldilməsi, onların vətəndaş və qadın olaraq öz hüquqlarının tam gerçəkləşdirilməsi üçün zəruri şərtlərin əməldə yaradılması ölkəmizin qarşısında duran ən önəmli strateji vəzifələrdəndir.

Bəlli olduğu kimi, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gender sahəsində dövlətimizin strateji kursu qadınların sosial həyatın bütün sahələrinə fəal surətdə, kişilərlə bərabər cəlb olunmasını nəzərdə tutur. Bu istiqamətdə ötən illər ərzində xeyli iş görülmüş, Avropa meyarlarına uyğun sanballı qanunvericilik bazası yaradılmışdır. Gender siyasətinin həyata keçirilməsi məqsədi ilə 1998-ci il yanvarında Qadın problemləri üzrə Dövlət Komitəsi təsis olunmuş, 2000-ci ilin martın 6-da respublikamızın bütün dövlət strukturlarında qadın və kişilər arasında bərabərliyin təmin olunmasını, gender nöqteyi-nəzərindən qanunvericiliyə yenidən baxılmasını nəzərdə tutan "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi" haqqında fərman imzalanmışdır.

Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə bu sahədə dövlətimiz yeni nailiyyətlər əldə etmişdir. 2006-cı il fevralın 6-da Respublika Prezidentinin Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin bazasında daha çox səlahiyyətlərə malik olan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi təşkil olundu. 2006-cı ilin oktyabrın 10-da Azərbaycan Respublikasının Prezienti İlham Əliyev tərəfindən imzalanmış

“Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə gender bərabərliyinin təşviqi sahəsində atılmış mühüm addımdır. Qanun kişi və qadınların ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasını təsbit etmişdir.

Dövlətimizin qadın sitasətinin müxtəlif cəhətlərinin araşdırılması həmin strategiyanın məqsəd və vəzifələrinin elmi təhlilinə, ölkəmizdə yeni gender düzəninin formalaşması istiqamətində baş verən dəyişikliklərin, qadın hüquqlarına dair beynəlxalq müqavilə və öhdəliklərin milli qanunvericiliyə implementasiyası prosesinin öyrənilməsinə, Azərbaycanda hüquqi dövlət quruculuğunun daha dolğun və obyektiv dərkinə imkan verməklə, elmi və praktiki əhəmiyyət daşıyır.

Ölkəmizdə həyata keçirilən dövlət qadın siyasəti qadınlarımızın sosial-siyasi statusunu yüksəltməklə bərabər, onların ictimai fəallığının artmasına, ölkə həyatının müxtəlif sferalarında cərəyan edən proseslərə daha aktiv qoşulmalarına təkan verir. Təsadüfi deyildir ki, fəaliyyət göstərən onlarla qadın təşkilatı sosial, siyasi və mədəni cəhətdən bir çox önəmli layihə həyata keçirir. Şübhəsiz ki, son illərdə ölkəmizdə coşqun tərəqqi edən qadın üçüncü sektoru Azərbaycanda vətəndaş cəmiyyətinin daha da möhkəmlənməsi və inkişafına öz töhfəsini verir. Respublikamızda müasir qadın hərəkatının elmi cəhətdən araşdırılması həmçinin bütövlükdə vətəndaş cəmiyyətinin Azərbaycan modelinin formalaşması qanunauyğunluqlarını üzə çıxarmağa, bu prosesin spesifik xüsusiyyətlərini müəyyənləşdirməyə, dövlət – üçüncü sektor qarşılıqlı münasibətlərinin mahiyyət məqamlarını aydınlaşdırmağa imkan yaradır.

Ölkəmizdə vüsət alan qadın hərəkatının, reallaşdırılan gender strategiyasının daha dolğun anlaşılması üçün yaxın keçmişin zəngin təcrübəsi mütləq nəzərə alınmalıdır. XX əsrin 70-80-ci illərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında gerçəkləşdirilən tərəqqi strategiyasının tərkib hissəsi olan dövlət qadın siyasəti Azərbaycan qadınının sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatda daha da fəal iştirakının, dövlət və hakimiyyət orqanlarında daha geniş təmsil olunmasının, maddi səviyyəsinin yüksəlməsinin, mədəni-məişət şəraitinin yaxşılaşmasının təminatçısı olmuşdu. Ölkəmizdə müasir dövrdə reallaşdırılan gender siyasəti mahiyyət xüsusiyyətlərinə görə məhz 1970-1980-ci illərin təcrübəsinə istinad edir. Bu səbəbdən dövlət qadın siyasətinin və qadın hərəkatının geniş zaman rakursunda öyrənilməsi elmi və praktiki zərurətə çevrilir.

Ölkəmizdə istər sosial tərəqqinin yaşandığı 1970-1980-ci illərdə, istər müstəqilliyinə qovuşduqdan sonrakı böhranlı illərdə və keçid dövründə, istərsə də həyatın bütün sahələrini əhatə edən coşqun inkişafın baş verdiyi son dönəmdə qadınlarımızın ictimai həyatın müxtəlif sahələrində durumunun müxtəlif cəhət-

lərinin sistemli şəkildə tədqiqi Azərbaycan hökumətinin sosial sferada və hüquqi dövlət quruculuğu sahəsində fəaliyyətinin bir çox aspektlərinin elmi dərkinə yardım edir.

Azərbaycanda baş verən ictimai dəyişikliklərin, siyasi, sosial, iqtisadi transformasiya proseslərinin öyrənilməsi məntiqi tədqiqatçını görkəmli dövlət xadimi, xalqımızın Ümummilli lideri Heydər Əliyev şəxsiyyətinin həmin proseslərdə rolu mövzusuna müraciət etməsini şərtləndirir. Faktiki olaraq 1969-cu ildən respublikamızın əvvəlcə sovetlər sistemi çərçivəsində, daha sonra isə müstəqil dövlət statusunda qazandığı müvəffəqiyyətlər və nailiyyətlər, Azərbaycanın modernləşməsinə yönəlmiş kursun strateji inkişaf xətti kimi həyata keçirilməsi məhz Ulu Öndərin məzmun və formaca zaman sərhədlərini aşan titanik fəaliyyəti ilə əlaqədar olmuşdur. Başqa sözlə, Heydər Əliyev ən yeni tariximizin son 40 ilini əhatə edən mərhələsinin mübaliğəsiz ən önəmli fiqurudur. Xalqımızın ümummilli liderinin tərəqqi strategiyası çərçivəsində qadınlara münasibətdə siyasi kursu dəyişən zamanla bahəm dəyişsə də, onun ana qayəsi – qadınların emansipasiyası, hərtərəfli və daimi inkişafı ideyası – sabit qalırdı. Hal hazırda ölkəmizdə gerçəkləşdirilən modernləşmə xəttinin üzvi hissəsi olan qadın siyasəti də Ulu Öndərin müəyyən etdiyi koordinatlar sistemində yürüdülməkdədir. Bu baxımdan sözügedən kursun sosial zaman kontekstində mahiyyət xüsusiyyətlərinin üzə çıxarılması böyük elmi və praktiki əhəmiyyət kəsb edir.

**Tədqiqatın xronoloji çərçivəsi** 1970-2015-ci illəri əhatə edir. Dissertasiya üçün belə bir xronologiyanın seçilməsi təsadüfi deyildir. Belə ki, məhz 1970-ci ildən o zamanlar SSRİ tərkibində müttəfiq respublika olan Azərbaycanda Heydər Əliyevin strateji kursunun həyata keçirilməsinə başlanılması sayəsində sürətli inkişaf trayektoriyasına qədəm qoyur. 2015-ci il isə Azərbaycanda parlament seçkilərinin keçirilməsi ilə əlamətdar olmuşdur, bu isə ölkəmizin ən yeni tarixinin müəyyən mərhələsinə yekun vurmağa imkan verir. Göstərilən xronoloji çərçivə daxilində aşağıdakı dövrləşmə məqbul görünür: 1970-1980-ci illərin ilk yarısı; Yenidənqurma illəri (1985-1991-ci illər); müstəqillik dönəminin ağır siyasi və sosial-iqtisadi böhranla müşayiət olunan ilk illəri (1991-1993-cü illər); Heydər Əliyevin hakimiyyətə qayıdışı və Azərbaycan dövlətinin əsaslarının yaradılması və möhkəmləndirilməsi (1993-2003-cü illər); İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə hüquqi dövlət quruculuğunun yeni mərhələyə qədəm basması (2003-2015-ci illər). Ölkəmizdə qadınların durumu, eləcədə gender siyasəti və qadın hərəkatı sözügedən mərhələlərə uyğun şəkildə keyfiyyət dəyişikliklərinə məruz qalırdı. Lakin istər Azərbaycanda qadın siyasətinin mahiyyətində, istərsə də həm 1970-1980-ci illərin ilk yarısı, həm də müasir Azərbaycan Respublikasında qadınların ictimai statusunun yüksəlməsində və sosial-iqtisadi vəziyyətinin inkişafında Heydər Əliyevin müəyyənləşdirdiyi qayə və prinsiplərin durması,

həmçinin müstəqillik dövründə qadın hərəkatının əvvəlki sovet dönəminin analoji hərəkatı ilə genetik əlaqəsi qeyd olunan illəri struktur baxımdan vahid bütöv kimi nəzərdən keçirməyi məqsədəuyğun edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycanda "qadın məsələsinin" tarixi, qadınların və mütərəqqi ziyalıların qadın hüquq və azadlıqları uğrunda mübarizəsi, sovet hakimiyyətinin ilk illərində qadınların emansipasiyası, qadın təhsili, qadınların ictimai istehsalata cəlb olunmaları, qadın kadrlarının hazırlanması və s. bu qəbildən mövzular sovet tarix elminin prioritet istiqamətlərindən hesab edilmişdir. Fəqət bilavasitə 1970-1980-ci illərdə Azərbaycan qadınlarının sosial-iqtisadi və ictimai inkişafına dair əsərlər yetərincə deyildir. İqtisadi aspektlərə həsr edilmiş əsərlər sırasında Ş.M.Muradovun monoqrafiyaları mühüm yer tutur.[1] Onun əsərləri üçün sosial-iqtisadi problematikanın əhatəliliyi, Azərbaycanda əmək ehtiyatlarının müxtəlif statistik məlumatlar əsasında yetərincə ətraflı təhlili səciyyəvidir. Görkəmli iqtisadçı müstəqillik illərində də insan potensialının formalaşmasına, habelə demoqrafik proseslərinin sosial-iqtisadi aspektlərinə dair tədqiqatlarını davam etdirmişdir.[2] Sovet dövründə bizi maraqlandıran illər üzrə işıq üzü görən tədqiqatlar arasında E.Qədirovanın monoqrafiyasını[3] xüsusi qeyd etməliyik. Əsər 1970-1980-ci illərin əvvəllərində respublikada yaşanan sosial-iqtisadi tərəqqi şəraitində Azərbaycan qadınlarının tərkibində baş verən keyfiyyət dəyişikliklərindən, qadınların maddi rifahının yüksəldilməsi və mədəni-məişət durumunun yaxşılaşdırılmasından, onların ictimai-siyasi fəallığının artmasından bəhs edir. Monoqrafiyaya müəyyən mənada sovet dövrü üçün səciyyəvi olan mövcud nailiyyətlər haqqında təntənəli raport üslubu xas olsa da, o, istər faktiki materialın bolluğu, istərsə də tədqiqat dairəsinə daxil edilmiş mövzunun əhatəliliyi baxımından əlverişli seçilməkdədir.

1997-2000-ci illərdə respublika hökuməti ilə olan razılaşmaya əsasən, BMT İnkişaf Proqramının "Gender və İnkişaf" layihəsinin bir hissəsi kimi Azərbaycanda Rəna İbrahimbəyovanın koordinatorluğu ilə "Gender İnkişafda" layihəsi reallaşdırılmışdı. Bu qurumun 1998-ci ilin fevralın 12-də keçirdiyi elmi-praktik konfransda həmin dövrdə qadınların idarəçilik orqanlarında təmsilçiliyi,

---

[1] Muradov Ş.M. Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri. Bakı: Elm, 1974, 189 s.; Muradov Ş.M. Azərbaycan SSR-in əmək ehtiyatları. (Nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər). Bakı: Elm, 1987, 260 s.

[2] Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı: Elm, 2004, 660 s.; Muradov Ş.M., Baxış Ç.Ə. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı: Avropa, 2013, 135 s.

[3] Qədirova E.H. Azərbaycan qadınları kommunizmin fəal qurucularıdır (1966-1980-ci illər). Bakı: Elm, 1982, 189 s.

hərbi münaqişələr və qadınlar, qadın və ekoloji problemlər, Azərbaycanda qadınların siyasi fəaliyyəti, ailə daxilində qadın hüquqlarının pozulmasının səbəbləri və s. haqqında maraqlı məruzələr oxunmuşdu. Konfransın materialları elə həmin il ayrıca kitab şəklində nəşr olunmuşdu. “Gender İnkişafda” qurumu həmin ilin iyulun 10-da “Qadın və hüquq” mövzusunda seminar keçirmişdi. Seminar həllinə böyük ehtiyac olan problemlərə həsr edilməklə, insan hüquqlarının normativ təminatı, qaçqın və köçkünlərin vəziyyəti, onların sosial müdafiəsi və bərpası, xüsusilə də qadın və uşaqların mühafizəsi məsələlərinə xüsusi diqqət yetirmişdi.[4]

Azərbaycanda nəzəri və praktiki gender tədqiqatlarının pionerlərindən sayılan, bu sahədə 1990-cı illərin sonlarından etibarən məhsuldar elmi və ictimai fəaliyyəti ilə tanınan R.Mirzəzadə öz monoqrafiyalarında gender problemlərinin elmi-nəzəri, fəlsəfi, tarixi, sosioloji və hüquqi aspektlərini tədqiq etmiş, gender dünyagörüşünün yeni elmi istiqamət kimi meydana gəlməsi, mahiyyəti və nəzəri-metodoloji tərəflərini yetərincə açmağa müvəffəq olmuşdur.[5]

R.Mirzəzadə və Ə.Abasovun həmmüəllifliyi ilə ölkəmizdə yeni gender dünyagörüşü və düzəninin formalaşması, yürüdülən gender siyasətinin sistem xüsusiyyətləri, gender statistikası haqqında bir sıra monoqrafiyalar nəşr olunmuşdur.[6] Sosioloji tədqiqatların nəticələrinə və statistik araşdırmalara əsaslanan bu əsərlər respublikamızda 1990-cı illərin sonu – 2000-ci illərin ilk yarısında təşəkkül tapmaqda olan gender situasiyası haqqında kifayət qədər geniş təsəvvür yaratmağa imkan verir.

2000-ci illərin əvvəllərində R.Mirzəzadənin rəhbərlik etdiyi “Gender və İnsan Hüququ” Araşdırma Birliyi genderşünaslığın nəzəri və praktiki

---

[4] Gender: qadın probleminin yeni mərhələsi (Respublika elmi-praktik konfransının materialları, 12 fevral 1998-ci il). Bakı: BMTİP “Gender İnkişafda” qurumu, 1998, s.20-22; Gender: Qadın və Hüquq. Respublika elmi-praktik konfransın materialları, 10 iyul 1998-ci il. Bakı: BMTİP “Gender İnkişafda” qurumu, 1998, 76 s.

[5] Mirzəzadə R.S. Gender: siyasi-hüquqi təhlil. Bakı: Adiloğlu, 2004, 206 s.; Mirzəzadə R.S. Gender: Cəmiyyət. İnsan hüququ. Siyasət (fəlsəfi, tarixi və siyasi-hüquqi istiqamətlər). Bakı: Adiloğlu, 2003, 420 s.; Mirzəzadə R.S. Qadın hüquqları. Bakı: İnam, 1999, 28 s.; Mirzəzadə R. R. Multikulturalizm siyasəti: Din və gender dialoqunda. Bakı: Təknur, 2013, 167 s.

[6] Abasov Ə.S., Mirzəzadə R.S. Azərbaycanın gender xəritələri. Bakı: “Teymur Poliqraf” MMC, 2006, 175 s.; Abasov Ə.S., Mirzəzadə R.S. Gender tədqiqatları Bakı: Ağrıdağ, 1999, 75 s.; Abasov Ə.S., Mirzəzadə R.S. Genderə giriş: Cəmiyyətdə cinslərin sosial rolları və qarşılıqlı münasibəti problemləri. Bakı: GİHAB, 2004, 120 s.; Abasov Ə.S., Mirzəzadə R.S. Müasir Azərbaycanda gender siyasəti (fəlsəfə, tarix, nəzəriyyə, statistika). Bakı: Səda, 2006, 204 s.

problemlərinin çeşidli aspektlərini tədqiq edən müxtəlif müəlliflərin yaradıcı səylərini birləşdirməyə müvəffəq olmuşdu. Birliyin təşəbbüsü ilə həmin dövrdə bir sıra məqalə topluları işıq üzü görmüşdü. Bu toplulardan 2000-ci ildə nəşr olunmuş "Gender tədqiqatlarında" gender axını, keçid dövrünün gender problemləri, cəmiyyətin feminist tənqidi və s. aktual problemlərə həsr olunmuş məqalələr dərc edilmişdir.[7] 2002-ci ildə nəşr olunmuş "Azərbaycanda gender tədqiqatları" adlı topluda Ə.Abasov, R.Mirzəzadə, M.İsmayılova, Z.Quluzadə, R.İbrahimbəyova, S.Adıgözəlova, D.Camalova, E.Süleymanova və başqa alimlərin gender tədqiqatlarının nəzəri tərəflərinə, təhsilin, səhiyyənin gender aspektlərinə, qadınların sosial problemlərinə, siyasi həyatda iştirakına dair məqalələri getmişdir.[8]

L.Mövsümovanın 2002-ci ildə işıq üzü görmüş monoqrafiyası ilk növbədə Azərbaycan qadının mənəvi dünyasını, dini etik keyfiyyətlərini araşdırsa da, müasir Azərbaycan cəmiyyətinin bəzi gender problemlərinə də toxunur. Müəllif keçid dövrünün qadınların sosial-iqtisadi durumunda doğurduğu təbəddülatları, o dönəmdə qadınların üzləşdikləri mənəvi problemləri təhlil edir.[9]

S. Nəcəfova və S. Səfiyevin birgə tərtib etdikləri "Azərbaycanın qeyri-hökumət qadın təşkilatları" adlı məlumat kitabçasında 2000-ci illərin əvvəllərində Azərbaycanda fəaliyyət göstərən bəzi qeyri-hökumət təşkilatları haqqında ətraflı məlumat verilir.[10].

Q. Süleymanovanın 2003-cü ildə "Azərbaycan Respublikası əhalinin məşğulluğunun gender aspektləri" adlı monoqrafiyası işıq üzü görmüşdür.[11] Əsərdə 2000-ci illərin əvvəllərində keçid dövrünü yaşayan ölkəmizin iqtisadiyyatının gender aspektlərinə toxunulmuş, əhalinin həyat səviyyəsi gender prizmasından nəzərdən keçirilmiş, məşğulluğun gender problemləri, qadın işsizliyinin səbəbləri araşdırılmışdır.

D.Camalova, M.Ömərova və S.Gəncəlinin müəllifləri olduğu "Qadın hərəkatının ön cərgələrində" adlı kitabda Azərbaycanda qadın azadlığı tarixinə qısa nəzər salınmış, Ümummilli lider Heydər Əliyevin qadınlarla əlaqədar fərmanları və sərəncamları ətraflı şərh olunmuş, müstəqil Azərbaycan qadınlarının I və II qurultayları, Qadın Problemləri üzrə Dövlət Komitəsinin o

---

[7] Gender tədqiqatları. Bakı: EL-ALliance, 2000, 92 s.

[8] Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər. Bakı: BMTİP, 2007, 104 s.

[9] Mövsümova L. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. Bakı: ULU, 2002, 300 s.

[10] Nəcəfova S., Səfiyev S. Azərbaycanın qeyri-hökumət qadın təşkilatları. Bakı: Şirvannəşr, 2002, 90 s.

[11] Süleymanova Q. M. Azərbaycan Respublikası əhalinin məşğulluğunun gender aspektləri. Bakı: Qərb Universiteti, 2003, 176 s.

dövrdə həyata keçirdiyi tədbirlər, Azərbaycan qadınlarının beynəlxalq əlaqələri geniş işıqlandırılmışdır.[12]

Azərbaycanda müasir dövrdə qadın hərəkatının bəzi məsələləri N.Zülfüqarovanın dissertasiya işində tədqiq olunmuşdur.[13] Tədqiqatın elmi yeniliyi ondadır ki, qadın hərəkatı vətəndaş cəmiyyətinin gender aspektlərinin təhlili ilə əlaqədə öyrənilir. Əsərdə müxtəlif gender nəzəriyyələrinin və təlimlərinin, feminist konsepsiyalarının şərhinə həddindən artıq geniş yer ayrılmış, və əksinə, müstəqillik illərində Azərbaycanda qadın hərəkatının təhlilinə daha az diqqət yetirilmişdir. Bununla yanaşı, müəllifin Azərbaycanda qadın "üçüncü sektorunun" formalaşmasına dair gətirdiyi faktlar və prosesin mahiyyət cəhətləri haqqında mülahizələri maraq doğurur.

Son illərdə Azərbaycanda qadın siyasəti və qadın fəallığının çeşidli aspektlərinin öyrənilməsi sahəsində G.İbrahimovanın tədqiqatları xüsusi qeyd olunmalıdır. G.İbrahimovanın monoqrafiyası[14] sadəcə qadın siyasətini deyil, ümumiyyətlə qadın məsələsinin müxtəlif süjet xətlərini araşdırır. Tədqiqatın xronoloji çərçivəsi kimi XIX-XX əsrlər göstərilsə də, o, faktiki olaraq Azərbaycan tarixinin kifayət qədər böyük dövrünü əhatə edir.

R.İbrahimbəyovanın iqtisadiyyatın, o cümlədən yoxsulluğun gender aspektlərinə, gender büdcəsinə, ölkəmizin gender inkişafına dair araşdırmaları[15] əsrlərin qovşağında Azərbaycanda sistem transformasiyaları şəraitində qadınların inkişafının bəzi xüsusiyyətlərini aşkara çıxarmağa imkan vermişdir.

2011-ci ildə AQUPDK və AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun birgə nəşr etdirdiyi kitabda[16] müstəqillik illərində Azərbaycan qadınının inkişafı, habelə ölkəmizdə müasir gender vəziyyətinin müxtəlif aspektləri mövzusunda müxtəlif müəlliflərin məqalələri toplanılmışdır.

Bizim 2007-ci ildə nəşr olunmuş monoqrafiyamız XIX əsrin II yarısından XXI əsrin əvvəllərinə kimi tarixi proseslərlə zəngin bir dövrü əhatə edir və Naxçıvan Muxtar Respublikasında qadın hərəkatının inkişaf mərhələlərini

---

[12] Camalova D., Ömərova M., Gəncəli S. Qadın hərəkatının ön cərgələrində. Bakı: Azərbaycan nəşriyyatı, 2004, 224 s.

[13] Зульфигарова Н.Х. Женское движение и гендерные аспекты становления гражданского общества в Азербайджане. Дис. ... канд. филос. наук. Баку; 2007, 167 с.

[14] İbrahimova G. Azərbaycan qadını: Tarix və Gerçəklik. Bakı: Elm, 2009, 500 s.

[15] İbrahimbəyova R. İqtisadiyyatın gender aspektləri // "Genderşünaslıq", 2000, №2, s.6-8; İbrahimbəyova R. Yoxsulluq probleminin gender aspektləri / Gender. Mədəniyyət (Məqalələr toplusu). Bakı, 2003, s.21-29; İbrahimbəyova R., Haqverdiyev O. Gender büdcəsi. Bakı: Səda, 2007, 168 s.

[16] Müstəqil Azərbaycan 20 il: Dövlət Ailə, Qadın və Uşaq Siyasəti. Bakı: "Nurlar" NPM, 2012, s. 48-52

araşdırır.[17] Monoqrafiyanın III fəslində o cümlədən 1970-1980-ci illərdə Naxçıvan qadınlarının sosial və mədəni tərəqqisi məsələləri öyrənilmiş, IV fəslində isə 1990-cı illərdə qadınların vəziyyəti, ictimai-siyasi və mədəni həyatda iştirakı tədqiq olunmuşdur.

Bir başqa əsərlər qrupunu xalqımızın dahi oğlu Heydər Əliyevin Azərbaycanın ən yeni tarixində xidmətlərinə dair tədqiqatlar təşkil edir. Bu qəbil tədqiqatlara müraciət bizə hadisələrin cərəyan etdiyi kontekstləri, qadınların sosial status və mövqelərində, maddi və mənəvi vəziyyətlərində baş verən dəyişikliklərin dinamikasını daha düzgün dərk etmək, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən dövlət gender siyasətinin qadınların tərəqqisində nə kimi rol oynadığını hərtərəfli təhlil etmək imkanı yaradır. Son 15 ildə işıq üzü görmüş çoxsaylı konfrans materiallarında, fundamental tədqiqatlarda, monoqrafiyalarda Heydər Əliyev fenomeni tarixi, bioqrafik, siyasi, sosial, iqtisadi mədəni kontekstdə tədqiq edilmiş, Ümummilli liderin dövlətçilik fəaliyyətinin müxtəlif aspektləri öyrənilmiş, ölkəmizin siyasi-dövləti varlığının institusional əsaslarının formalaşmasında misilsiz xidmətləri təhlil olunmuşdur.[18]

Beləliklə, mövcud elmi ədəbiyyatın icmalı söyləməyə əsas verir ki, nəzərdə tutduğumuz xronoloji çərçivədə Azərbaycanda dövlət qadın siyasətini və qadınların inkişafını kompleks tədqiq edən əsər yoxdur. Mövcud tədqiqatlarda ölkəmizdə gender siyasətinin, qadınların vəziyyətinin, cinslərarası münasibətlərin bu və ya digər aspekti, özü də bir çox hallarda müstəsna olaraq tarixi, sosioloji, politoloji, psixoloji, hüquqi, iqtisadi səpkidə öyrənilmişdir. Bundan əlavə, zaman etibarı ilə yaxın dövrdə işıq üzü görmüş əsərlərdə belə sözügedən mövzular ən yaxşı halda 2009-cu ilə kimi izlənilmişdir. Bu zaman misilsiz tərəqqiyə şahidlik

---

[17] Abbasova S.Z. Naxçıvan Muxtar Respublikasında qadın hərəkatının inkişaf tarixi. Bakı: MBM, 2007, 167 s.

[18] Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. Üçüncü hissə (1982-1990). Bakı: Ozan, 2009, 804 s.; Alışanova M. Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir. Bakı: Çinar-Çap, 2006, 214 s.; Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2001, 280 s.; Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illiyinə həsr olunmuş ümumrespublika konfransı materialları. Bakı: Qafqaz universiteti, 2008, 208 s.; Heydər Əliyev və dövlət qadın siyasəti (I kitab). Bakı: Nurlar, 2008, 440 s.; Mahmudov Y.M. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı: Təhsil, 2011, 608 s.; Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərnəşr, 1998, 388 s.; Səfərov S.İ. Heydər Əliyev kursu yeni keyfiyyət halında: iqtisadiyyat, siyasət, dinamizm, perspektivlər. Bakı Azərnəşr 2005, 504 s.

etmiş sonrakı illər diqqətdən kənarda qalmışdır. Bu baxımdan təqdim olunmuş dissertasiya bu boşluqları aradan qaldırmaq məqsədini güdür.

**Tədqiqatın mənbə bazası.** Dissertasiyanın mənbə bazası öz xarakter və əhəmiyyətinə görə müxtəlif növ qaynaqlarla təmsil olunmuşdur. Tədqiqat zamanı arxiv materiallarından, o cümlədən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin cari arxivindən və Naxçıvan Muxtar Respublikasının müvafiq qurumunun cari arxivindən istifadə edilmişdir. Bu arxivlərdə AQUPDK və onun Naxçıvandakı filialının müxtəlif illər üzrə hesabatları saxlanılır ki, orada sözügedən qurumların fəaliyyəti, həyata keçirdikləri tədbirlər, iştirak etdikləri qurultay, konfrans və seminarlar haqqında məlumatlar, həmçinin Naxçıvanda qadınların durumunu əks etdirən statistik göstəricilər geniş yer almışdır. Arxiv materialları Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məsul dövlət institutu kimi ölkəmizdə və onun ayrılmaz parçası olan Naxçıvan Muxtar Respublikasında gerçəkləşdirdiyi gender siyasətinin bir çox cəhətini ayırd etməyə imkan verir.

Mənbələrin digər mühüm qrupunu Dövlət Statistika Komitəsi tərəfindən istər sovet dövründə, istərsə də müstəqillik illərində buraxılan müxtəlif statistik külliyyatlar təşkil edir. Sovet dövründə rus dilində işıq üzü görən və müxtəlif illərdə iqtisadiyyatın, demoqrafik və sosial sferanın inkişafını əks etdirən "Azərbaycan SSR-nin xalq təsərrüfatı" adlı külliyyat 1970-1980-ci illərin ilk yarısında respublikamızın sosial-iqtisadi tarixini öyrənmək baxımından son dərəcə önəmli mənbədir. Bu külliyyatlarda qadınların məşğulluğu, təhsil, səhiyyə və mədəniyyətdə rolu haqqında xeyli statistik məlumat saxlanılır. 1990-cı ildən etibarən adı çəkilən külliyyatın əvəzinə "Azərbaycan rəqəmlərdə" məcmuəsi çap olunmağa başlanır. Bu məcmuələrdə, habelə 1997-ci ildə nəşr olunmuş "Azərbaycanın qısa statistik portretində" gətirilmiş zəngin statistik rəqəmlər 1990-cı illərdə sistem böhranı şəraitində sosial-iqtisadi həyatın bütün sahələrində müşahidə olunan hərtərəfli tənəzzül və geriləmənin mənzərəsini yenidən yaratmağa imkan verir.

2000-ci ildən ölkənin sosial və iqtisadi həyatının demək olar bütün sferalarında baş verən prosesləri əks etdirən "Azərbaycanın statistik göstəriciləri" adlı məcmuə işıq üzü görməkdədir. Məcmuə dövlət statistika orqanları tərəfindən müəssisələrdən, təşkilatlardan alınan məlumatlar, siyahıyaalmaların, seçmə müayinələrin və digər statistik müşahidələrin keçirilməsi yolu ilə əldə edilən məlumatlar, nazirlik və digər dövlət qurumlarının məlumatları əsasında hazırlanır. Məcmuədə mülkiyyət münasibətlərinin və təsərrüfatçılıq formalarının inkişafı, tədiyyə balansı, ölkənin şəhər və rayonları üzrə əsas iqtisadi göstəricilər və s. bilgilər verilmişdir.

Dövlət Statistika Komitəsinin Azərbaycanın müstəqilliyinin 10 və 20 illiyi ilə bağlı buraxdığı yubiley nəşrləri,[19] son illərdə Azərbaycanın sosial-iqtisadi tərəqqisinin statistik göstəricilərini ehtiva edən toplular[20], habelə demoqrafik prosesləri, əmək bazarını, səhiyyə, sosial təminat, təhsil, elm və mədəniyyətin, eləcə də regionların inkişafını xarakterizə edən xüsusi məcmuələr[21] də elmi tədqiqat üçün mühüm önəmə malikdir.

Dissertasiya işinin yazılmasında "Azərbaycanda qadınlar və kişilər" adlı statistik məcmuənin[22] olduqca böyük mənbə əhəmiyyəti olmuşdur. Azərbaycan hökuməti 1995-ci ildə Pekin konfransında qəbul edilmiş "Fəaliyyət platformasına" uyğun olaraq, Dövlət Statistika Komitəsinə gender statistikasının tutulmasını həvalə etmişdir. Bununla əlaqədar DSK 1999-cu ildən başlayaraq mütəmadi olaraq "Azərbaycanda qadınlar və kişilər" adlı illik məcmuə nəşr edir. Azərbaycan və ingilis dillərində tərtib olunan məcmuə gender bölgüsündə beynəlxalq standartlara uyğunlaşdırılaraq hazırlanır və on bölmədən (əhali, təhsil və elmi kadrlar, məşğulluq və işsizlik, həyat səviyyəsi və sosial təminat, parlament, hüquqpozmalar və s.) ibarətdir. Bu məcmuə Azərbaycan qadınının son 15 ildə müxtəlif sahələrdə tərəqqisinin elmi təhlili üçün fövqəladə dəyərli material təqdim edir.

Bir başqa mənbə qrupunu "İnsan İnkişafı haqqında Hesabatlar" təşkil edir.[23] 1990-cı ildən başlayaraq, BMT-nin İnkişaf Proqramı (BMTİP) dünya ölkələrində

---

[19] Müstəqil Azərbaycan 10 il. Bakı: Səda, 2001, 698 s.; Müstəqil Azərbaycan – 20. Bakı: Azərbaycan Respublikası DSK, 2011, 640 s.

[20] Xalqa həsr olunan illər. Bakı: Azərbaycan Respublikası DSK, 2013, 525 s.; Yeni tərəqqi illəri 2003-2011. Bakı: Azərbaycan Respublikası DSK, 2011, 254 s.

[21] Azərbaycanda səhiyyə, sosial təminat və mənzil şəraiti. Statistik məcmuə. Bakı: Azərbaycan Respublikası DSK, 2014, 270 s. Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə. Bakı: Azərbaycan Respublikası DSK, 2014, 498 s.; Azərbaycanın demoqrafik göstəriciləri 2014. Bakı: Azərbaycan Respublikası DSK, 2014, 560 s.; Azərbaycanın qısa statistik portreti. Bakı: Azərbaycan Respublikası DSK, 1997, 45 s.; Azərbaycanın regionları 2014. Bakı: Azərbaycan Respublikası DSK, 2014, 778 s.; Əmək bazarı 2015. Statistik məcmuə. Azərbaycan Respublikası DSK. Bakı, 2015, 162 s.

[22] Azərbaycanda qadınlar və kişilər 1999. Azərbaycan Respublikası DSK. Bakı: Səda, 1999, 63 s.; Azərbaycanda qadınlar və kişilər 2000. Azərbaycan Respublikası DSK. Bakı: Səda, 2000, 56 s.; Azərbaycanda qadınlar və kişilər 2005. Azərbaycan Respublikası DSK. Bakı: 2005, 240 s.; Azərbaycanda qadınlar və kişilər 2010. Azərbaycan Respublikası DSK. Bakı: 2010, 318 s.; Azərbaycanda qadınlar və kişilər 2015. Azərbaycan Respublikası DSK. Bakı: 2015, 190 s..

[23] Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabat. Bakı: Göytürk, 1995, 67 s.; Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabat. Bakı: PrintStudio, 2001, 84 s.

əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatları nəşr etdirir. Azərbaycanda bu qəbildən olan hesabatlar 1995-ci ildən çap olunur. Tədqiqatda 1995-2004-cü illərə dair "Hesabatlardan" istifadə olunmuşdur. Onlarda ehtiva olunan məlumatların öyrənilməsi keçid dövründə Azərbaycan əhalisinin, o cümlədən qadınların çoxsaylı problemlərinin, bu problemləri doğuran şərait və səbəblərin elmi cəhətdən araşdırılmasına yardım edir.

1999-cu ildə BMT İnkişaf Proqramı çərçivəsində "Azərbaycan Respublikasında qadınların vəziyyəti haqqında Hesabat" nəşr edildi.[24] Hesabatda Azərbaycan qadınının məşğulluq, təhsil, səhiyyə və digər sahələrdə vəziyyətinə dair maraqlı bilgilər var. 2007-ci ildə Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabatın gender aspektlərini araşdıran xüsusi bölməsi "Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər" adı altında ayrıca nəşr olundu.[25] Hesabat Azərbaycanda və ümumiyyətlə MDB ölkələrində ilk dəfə həyata keçirilən gender münasibətləri haqqında ilk müstəqil sorğunun nəticələrini əks etdirir. Hesabatın əsas məqsədi gender münasibətlərini müəyyənləşdirmək, onların ölkədəki gender bərabərliyinə təsirini təhlil etmək və bu yolla ictimai müzakirələrə şərait yaratmaq idi. Hesabata Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva dərin məzmunlu Ön söz yazmışdır.

Dissertasiyanın yazılması zamanı müraciət etdiyimiz digər mənbə qrupunu Azərbaycan Respublikası hökuməti tərəfindən BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Komitəsinə təqdim etdiyi mütəmadi Hesabatlar təşkil edir.[26] Sözügedən sənədlərdə ictimai-siyasi, iqtisadi,

---

[24] Azərbaycan Respublikasında qadınların vəziyyəti haqqında Hesabat. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı. Bakı: Caspian Communications LTD, 1999, 80 s.

[25] Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər. Bakı: BMTİP, 2007, 104 s.

[26] Azərbaycan Respublikasının BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" konvensiyası üzrə 4-cü dövri hesabatı (2008), 68 s.; Второй и третий периодический доклад, представленный Правительством Азербайджанской Республики в Комитет по ликвидации дискриминации в отношении женщин ООН, 8 марта 2005 г.,104 с.; Отчет Государственного Комитета по Делам Женщин Азербайджанской Республики по вопроснику для правительств, касающийся осуществления Пекинской платформы действий (1995 год) и решений двадцать третьей специальной сессии Генеральной Ассамблеи ООН (2000 год). Баку: 2004, 32 стр.; Первый периодический доклад Азербайджанской Республики по Конвенции ООН «О ликвидации всех форм дискриминации по отношении женщин, 16 сентября 1997 г., 24 с.; Пятый периодический доклад, представленный Правительством Азербайджанской Республики в Комитет по ликвидации дискриминации в отношении женщин ООН, 11 марта 2013 г., 52 с.

sosial-mədəni sahələrdə qadınlarımızın tərəqqisi, onların qarşılaşdıqları problemlər, mövcud gender stereotipləri haqqında yetərincə faktlar ehtiva olunur.

Dissertasiyanın mühüm qaynaq qruplarından birini dövrü mətbuat materialları təşkil edir. Bu mənada xronoloji cəhətdən birinci olaraq "Azərbaycan qadını" jurnalını xüsusi qeyd etməliyik. "Azərbaycan qadını" jurnalı 1970-1980-ci illərdə respublikamızda qadınların tərəqqisinin, qadın hərəkatının canlı salnaməsi idi. Jurnal o dövrdə qadınlarla bağlı elə bir problem yox idi ki, onu müzakirə etməsin, diqqət mərkəzində saxlamasın. Məhz bu jurnalın səhifələrində qərarların gerçək həyatda necə reallaşdırıldığını, qadınların baş verən hadisələrə və proseslərə münasibətini, o illərdə qadın təşəbbüskarlığının forma və məzmununu öyrənmək mümkündür. Bizim tədqiqatımızda 1970-1990-cı illərin qadın tarixinin öyrənilməsində statistik toplularla yanaşı bu jurnalın birinci dərəcəli əhəmiyyəti olmuşdur. Dissertasiyada həmçinin"Genderşünaslıq", "Qadın və Cəmiyyət", "Vətəndaş cəmiyyəti" jurnallarından istifadə edilmişdir. Dissertasiyanın yazılması zamanı müraciət etdiyimiz "Azərbaycan", "Xalq qəzeti" və digər qəzetlərdən ölkə rəhbərlərinin bizi maraqlandıran mövzu üzrə bəzi çıxışları, müraciətləri, sərəncamları, fərmanları qadın qurultayları haqqında materiallar, müxtəlif məqalələr təhlil olunmuşdur.

Ölkə Prezidentinin fərman və sərəncamlarının, Milli Məclis tərəfindən qəbul edilmiş qanunların, Nazirlər Kabinəsinin qərarlarının, müxtəlif dövlət plan və proqramlarının dərc olunduğu "Azərbaycan Respublikasının Qanunvericilik Toplusu" ölkəmizdə dövlət qadın siyasətinin, eləcə də hüquqi dövlət quruculuğunun hüquqi-normativ bazasını öyrənmək baxımından böyük önəm kəsb edir.

Beləliklə, mövzunun mənbəşünaslıq icmalı göstərir ki, ölkəmizdə gender siyasəti, qadınların respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında rolu ilə bağlı xeyli sayda qaynaqlar vardır və bu mənbələrə tənqidi yanaşma, onların müqayisəli təhlili yolu ilə sözügedən problemi obyektiv və dolğun tədqiq etmək mümkündür.

**Tədqiqatın məqsəd və vəzifələri.** Mövzunun öyrənilmə vəziyyəti də göstərir ki, göstərilən xronoloji çərçivədə dövlət qadın siyasətinin çeşidli aspektlərinin, bu siyasətin qadınların həyatının müxtəlif sahələrində doğurduğu nəticələrin kompleks elmi tədqiqinə ehtiyac böyükdür. Hazırkı tədqiqatın məqsədi 1970-1980-ci illərdə və müstəqillik dövründə istər dövlətin gender siyasətinin, istər qadınların təqribən 45 illik müddət ərzində ictimai-siyasi, sosial-iqtisadi, mədəni vəziyyətlərində baş verən dəyişikliklərin, istərsə də qadın hərəkatının inkişaf mərhələlərinin hərtərəfli və obyektiv araşdırılmasıdır. Həmçinin tədqiqatda son illərdə yaşanan modernləşmə proseslərində qadınların

rolunu aydınlaşdırmaq məqsədi güdülür. Bu məqsədlərə nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- 1970-1980-ci illərin əvvəllərində Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafının ümumi səciyyəsini açmaq;
- qadınların ictimai istehsalata cəlb olunması prosesini tarixi-sosioloji planda təhlil etmək;
- 1970-1980-ci illərin əvvəllərində qadınların sosial və mədəni inkişafını və onu doğuran səbəbləri araşdırmaq;
- Azərbaycanda qadın şuralarının fəaliyyətinin mahiyyət xüsusiyyətlərini tədqiq etmək;
- 1980-ci illərin sonu – 1990-cı illərin ilk yarısında sistem böhranı şəraitində Azərbaycan qadınlarının sosial-iqtisadi statusunun və vəziyyətinin dinamikasını öyrənmək;
- beynəlxalq qadın hüquqları sisteminin icmalını vermək;
- Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə hüquqi dövlətin əsaslarının yaradılması kontekstində yeni gender qanunvericiliyinin təşəkkülü prosesini təhlil etmək;
- 1998-2003-cü illərdə Azərbaycanda dövlət qadın siyasətinin institusional xüsusiyyətlərini müəyyənləşdirmək;
- 2003-2015-ci illərdə qadın siyasətində baş vermiş keyfiyyət dəyişikliklərini araşdırmaq;
- müstəqillik illərində ölkəmizin sosial-iqtisadi tərəqqisinin qadınların vəziyyətinə təsirini təhlil etmək;
- Azərbaycan Respublikasında qadınların sosial-mədəni inkişafının ətraflı elmi mənzərəsini vermək;
- ölkəmizdə qadın sahibkarlığının inkişaf mərhələlərini araşdırmaq və bu sahədə mövcud problemləri üzə çıxarmaq;
- müstəqil Azərbaycan qadınlarının qurultaylarının ölkədə qadın hərəkatının dinamikası kontekstində öyrənmək;
- qadın qeyri-hökumət təşkilatlarının vətəndaş cəmiyyəti quruculuğunda iştirakını göstərmək;
- qadın üçüncü sektorunun inkişaf mərhələlərini və xüsusiyyətlərini açmaq.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Dissertasiyanın nəzəri-metodoloji əsasında tarixi hadisələrin meydana gəlməsi və inkişafını konkret-tarixi şəraitdə nəzərdən keçirən tarixilik prinsipi durur. O həmçinin tədqiqata cəlb olunmuş mənbələrin materiallarının və tədqiqatlardakı faktların, ümumiləşdirmələrin, mülahizələrin obyektiv təhlili və təşkilini nəzərdə tutur. Əsərdə qadın siyasətinin və qadın hərəkatının əsas inkişaf mərhələlərini müəyyənləşdirmək məqsədilə tarixi-müqayisəli təhlil metodundan, empirik göstəricilərin təhlili üçün statistik

metoddan istifadə edilmişdir. Həmçinin Azərbaycan Respublikasında qadınların sosial-iqtisadi vəziyyətini, sosial statusunu, siyasi fəallıq dərəcəsini müəyyənləşdirmək üçün konkret sosioloji metodlar tətbiq edilmişdir.

Azərbaycanda qadın siyasətinin və qadın hərəkatının, qadınların ölkə həyatının müxtəlif sahələrdə rolunun, habelə gender münasibətlərində baş verən dəyişikliklərin araşdırılması müəyyən mənada son on illiklərdə dünya sosio-humanitar elmində gender tədqiqatlarının özünü təsdiq etməsi ilə əlaqədardır. Ona görə də adları çəkilən mövzular üzrə tədqiqatçı strategiyası müasir elmdə ciddi mövqelər qazanmış tarixi qadın və gender araşdırmalarının bəzi ideyalarına müraciəti labüd edir. Bu baxımdan tədqiqatda "gender düzəni", "gender sistemi", "gender kontraktı", "üfüqi və şaquli gender seqreqasiyası" kimi anlayışlardan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** İlk növbədə qeyd edərdik ki, tarixşünaslıqda göstərilən zaman intervalında dövlət gender siyasəti kontekstində qadınların inkişafının ictimai-siyasi, sosial-iqtisadi, mədəni aspektlərini, onların ölkə həyatının müxtəlif sferalarında iştirakını hərtərəfli və kompleks şəklində tədqiq edən əsər yoxdur. Bu baxımdan təqdim olunmuş dissertasiya mövcud boşluğu doldurmağa çağırılmışdır. Tədqiqatda bir çox hallarda faktiki olaraq ilk dəfə:

- 1970-1980-ci illərdə Heydər Əliyevin Azərbaycan SSR-nin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sferalarını əhatə edən tərəqqi strategiyası çərçivəsində qadınların inkişafı, statusunun yüksəldilməsi, qadın məşğulluğunda baş verən kəmiyyət və keyfiyyət dəyişiklikləri, qadınların elm və təhsil sahələrində irəliləməsi, dövlət idarəetmə orqanlarında, hakimiyyət strukturunda təmsilçiliyinin artması statistik və dövri mətbuat materialları əsasında açılıb göstərilmişdir;
- tarixşünaslığımızda ilk dəfə olaraq "işləyən ana" gender kontraktı konseptinə istinadən o dövrdə qadınların ictimai və fərdi funksiyaları təhlil olunmuş, ictimai istehsala cəlb olunmaları üzrə dövlət kursunun mahiyyətinə aydınlıq gətirilmişdir;
- Azərbaycan SSR-də həm Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dönəmdə, həm də 1980-ci illərin sonu - 1990-cı illərin əvvəllərində qadın hərəkatı araşdırılmış, qadın şuralarının fəaliyyəti göstərilmiş, mövcud sovet gender düzəni kontekstində həmin fəaliyyətin spesifik xüsusiyyətləri açılmış, şuraların yerinə yetirdikləri funksiyalar təhlil edilmiş, qadın şuraları ilə partiya orqanlarının münasibətləri müəyyənləşdirilmişdir;
- "Yenidənqurma illərində" Azərbaycan qadınlarının sosial-iqtisadi statusunun və vəziyyətinin dinamikası araşdırılmış, neqativ dəyişikliklərin doğurduğu fəsadlar üzə çıxarılmışdır;

- 1990-cı illərin ilk yarısında sistem kollapsı və tranziti şəraitində qadınların sosial-iqtisadi və mədəni vəziyyətinin fəlakətli şəkildə pisləşməsi statistik məlumatlar və müxtəlif hesabatlar əsasında ətraflı təhlil olunmuş, böhranın səbəbləri və doğurduğu nəticələr müəyyənləşdirilmişdir;

- Heydər Əliyev cənablarının dövlət quruculuğu sahəsində fəaliyyətinin bir sıra məqamlarına yeni qiymət verilmiş, Ulu Öndərin siyasi yaradıcılığının bəzi mahiyyət xüsusiyyətləri təhlil edilmişdir;

- 1993-1998-ci illərdə Azərbaycan dövlətçiliyinin faktiki olaraq yeni hüquqi əsaslarının formalaşması şəraitində müasir standartlara uyğun gender qanunvericiliyinin təşəkkülü prosesi araşdırılmış, bu prosesdə Heydər Əliyevin modernist baxışları göstərilmişdir;

- 1998-ci ildə Qadın problemləri üzrə Dövlət Komitəsinin təsis edilməsinin ilkin şərtləri öyrənilmiş, Komitənin "Əsasnaməsinin" təhlili verilmişdir;

- 1998-2003-cü illərdə Heydər Əliyevin həyata keçirdiyi gender siyasətinin strateji istiqamətləri müəyyənləşdirilmiş, bu istiqamətlər üzrə görülən tədbirlər təhlil edilmişdir;

- 1990-cı illərin sonu – 2000-ci illərin əvvəllərində hökumətin qadın əməyinin və sağlamlığının mühafizəsinə yönəlmiş tədbirləri araşdırılmışdır;

- Azərbaycanın hüquqi məcəllələri gender baxımından təhlil olunmuş, onlarda olan və qadın hüquqlarının müdafiəsinə yönəlmiş müddəalar şərh edilmişdir;

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının rəhbərliyi altında həyata keçirilən gender siyasəti yeni modernləşmə strategiyası fonunda tədqiq olunmuşdur;

- 2006-cı ilin oktyabrın 10-da "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" və 2010-cu ilin iyunun 22-də "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunları yeni gender düzəninin təşəkkülü nöqteyi-nəzərindən ətraflı təhlil edilmişdir;

- 2006-cı il fevralın 6-da Respublika Prezidentinin Fərmanı ilə yaradılmış Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti geniş tədqiq olunmuşdur;

- dövlət hakimiyyət strukturlarının ölkəmizdə qadınlara qarşı zorakılığa və erkən nikahlara qarşı mübarizə tədbirləri ətraflı öyrənilmiş, bu sahədə mövcud problemlər müəyyənləşdirilmişdir;

- Azərbaycanda son illərdə yaşanan sosial-iqtisadi tərəqqinin qadınların vəziyyətinə təsiri zəngin statistik bilgilər əsasında ətraflı şəkildə araşdırılmış, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında qadınların iqtisadi fəallığı, qadın məşğulluğunun və işsizliyinin dinamikası, əmək haqlarında gender pariteti, muzdla işləyən əhalinin cins bölgüsü, əhalinin məşğulluq strukturu,

məşğul əhalinin gender bölgüsünün təhsil parametrləri və s. məsələlər təhlil olunmuş, qeyd olunan sahələrdə mövcud problemlər aşkara çıxarılmış, əldə edilmiş nəticələr tərtib etdiyimiz cədvəllərlə illüstrasiya olunmuşdur;

- İqtisadi yüksəliş illərində ölkəmizdə qadınların sosial və mədəni həyatında baş vermiş kəmiyyət və keyfiyyət dəyişiklikləri öyrənilmiş, demoqrafik proseslərin gender aspektləri, qadınların sağlamlığı, qadın təhsili, dövlət və qeyri-dövlət tədris müəssisələrində gender vəziyyəti, elmi-tədqiqat institutlarında, mədəniyyət müəssisələrində çalışanların cinsi nisbəti və s. məsələlər statistik rəqəmlər əsasında araşdırılmış, bu sahələrdə mövcud təmayüllər və qalmaqda olan problemlər üzə çıxarılmışdır;
- respublikamızda qadın sahibkarlığının inkişaf meylləri araşdırılmış, mərhələləri müəyyənləşdirilmiş, qadınların işgüzar fəallığını əngəlləyən hüquqi, sosial və mədəni-mental səbəblər göstərilmişdir;
- Müstəqil Azərbaycan qadınlarının 1998, 2003, 2008 və 2013-cü illərdə olmuş qurultaylarının ölkəmizdə qadın hərəkatının institusionallaşmasında oynadığı rol araşdırılmışdır;
- ölkəmizdə qadın qeyri-hökumət təşkilatları sektorunun meydana gəlməsi və inkişafı təşəkkül tapmış vətəndaş cəmiyyətinin Azərbaycan modelinin spesifik xüsusiyyətləri ilə əlaqədar öyrənilmiş, bu təşkilatların inkişaf mərhələlərinin məzmun xarakteristikası verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti Azərbaycanda dövlət qadın siyasətinin məzmununun, strateji prinsiplərinin və istiqamətlərinin müəyyənləşdirilməsindən, sovet dövründə və müstəqillik illərində qadınların ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafının qanunauyğunluqlarının, qadın hərəkatının təzahür cəhətlərinin və təşkilati formalarının aşkara çıxarılmasından ibarətdir. Tədqiqatın praktiki əhəmiyyətinə gəldikdə, burada gətirilmiş geniş faktiki material, yeni elmi mülahizələr, ümumiləşdirmələr və nəticələr Azərbaycanın gender tarixinə və "tarixi feminologiyaya", qadın hərəkatının tarixinə dair ümumiləşdirilmiş əsərlərin hazırlanmasında, ölkəmizin sosial, iqtisadi və mədəni inkişafının gender aspektlərinə dair tədqiqatların aparılmasında, dərslik, dərs vəsaiti və digər ümumiləşdirilmiş əsərlərin hazırlanmasında, ali və orta ixtisas məktəblərinin müvafiq fakültələrində mühazirələrin oxunmasında, seminarların keçirilməsində və buraxılış işlərinin yazılmasında geniş istifadə oluna bilər. Hazırkı tədqiqat işinin nəticələri həmçinin müvafiq dövlət qurumları tərəfindən qadınlara münasibətdə müxtəlif sahələrdə tədbirlərin hazırlanması və həyata keçirilməsində faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu 13 yanvar 2012-ci il tarixdə Naxçıvan Dövlət Universitetinin Elmi Şurasında (protokol № 4) və

Respublika elmi tədqiqatlarının tərkibi və əlaqələndirilməsi şurasının Tarix üzrə Problem Şurasının qərarı ilə (5 aprel 2012, protokol № 15 ) təsdiq olunmuşdur. Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın nəticələrinə dair "Heydər Əliyevin dövlətçilik irsi və müstəqil Azərbaycanın inkişaf modeli" mövzusunda doktorant və disertantların elmi konfransında (2012) "Respublikanın mədəni quruculuq işlərində qadınların rolu (1993-2003-cü illərdə)", "Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyinə həsr edilmiş respublika elmi konfransı"nda (2014) "Azərbaycan Xalq Cümhuriyyəti və qadın hüquqları məsələsi", "Küreselleşen dünyada kadin ve siyaset uluslararası kongresi" adlı beynəlxalq elmi konfransda (2015) "Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu kontekstində dövlət qadın siyasətinin institusional əsaslarının formalaşması (1998-2003-cü illər)" və "Azərbaycan Respublikasının hüquqi məcəllələrinin gender aspektləri", "Naxçıvanın muxtariyyəti tarixi nailliyyətdir" adlı beynəlxalq konfransda (2014) "Naxçıvanın muxtariyyət tarixinin Gender Aspektləri", "Heydər Əliyev irsi və Azərbaycan Respublikasının davamlı inkişafi" mövzusunda doktorant və disertantların elmi-praktiki konfransında (2015) "Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun yeni mərhələsi" mövzusunda məruzələr edilmişdir. Tədqiqatın əsas elmi nəticələri və məzmunu müəllifin iki monoqrafiyasında, Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi müxtəlif elmi nəşrlərdə çap olunmuş 31 elmi məqaləsində və elmi konfranslarda etdiyi məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin tarixşünaslıq və mənbəşünasıq cəhətdən təhlili verilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, elmi yeniliyi, metodoloji əsasları və nəzəri, əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın I fəsli "**Azərbaycan qadını 1970-1990-cı illərin əvvəllərində"** adlanır və iki yarımfəsildən ibarətdir. Fəslin birinci yarımfəsli – "**1970-1980-ci illərin ilk yarısında Azərbaycanda dövlət qadın siyasəti və qadınların sosial tərəqqisi"** Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə qadınların ictimai, siyasi, iqtisadi, mədəni-mənəvi inkişafının təhlilinə həsr edilmişdir. Burada həmin dövrün ümumi səciyyəsi verilmiş, respublikada həyata keçirilən qadın siyasətinin əsas istiqamətləri təhlil edilmişdir. 1970-80-ci

illərin ilk yarısında respublikanın həyat fəaliyyətinin bütün sahələrini əhatə edən inkişaf və tərəqqi Azərbaycan qadınının da istər sosial-iqtisadi, istər idarəçilik, istərsə də mədəni durumunda müsbət mənada təsirsiz ötüşməyə bilməzdi. Sözügedən dövrdə ictimai həyatın elə bir sferası yox idi ki, orada qadınlarımız ciddi irəliləyişlərə nail olmasın.

Nəzərdən keçirdiyimiz dövrdə xalq təsərrüfatının müxtəlif sahələrində qadınların sayında və pay çəkisində də artım müşahidə edilirdi. Statistik bilgilərə əsasən, əgər 1969-cu ildə xalq təsərrüfatının müxtəlif sahələrində 491 min qadın çalışırdı və onlar bütün fəhlə və qulluqçuların 40%-ni təşkil edirdisə, 1982-ci ildə işləyən qadınların sayı 820 minə, 1985-ci ildə isə 885 minə çatmışdı ki, bu da ümumi işçilərin 43% demək idi. 1970-ci ilə nisbətdə 1985-ci ildə Azərbaycan SSR-də fəhlə və qulluqçu qadınların sayı 171,6% artmışdı. Respublika hökumətinin 1970-1980-ci illərin ilk yarısında qadınların ictimai istehsala cəlb edilməsi və onların əməyindən səmərəli istifadə olunması sahəsində həyata keçirdiyi kompleks sosial-iqtisadi tədbirlər nəticəsində onların əmək və məişət şəraiti xeyli yaxşılaşmış və ictimai istehsaldakı məşğulluq səviyyələri yüksəlmişdi.

Çalışan qadınların ümumi strukturunda kəmiyyət artımı ilə yanaşı, keyfiyyət dəyişiklikləri də baş verməkdə idi. Bu, xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli qadın mütəxəssislərin sayının artımında özünü büruzə verirdi. Əgər 1965-ci ildə çalışan qadınların 66,5 min nəfəri ali və orta ixtisas təhsili almışdısa (36,8%), 1980-ci ildə 232,4 min nəfərə (46,6%), 1985-ci ildə 278,5 min nəfərə (45,9%) çatmışdı.[27] 1970-80-ci illərin əvvəlləri Azərbaycan elminin coşqun inkişaf mərhələsi yaşadığı bir zaman idi. Elm, təhsil sahələrində Azərbaycan qadınının rolu və əhəmiyyəti xeyli yüksəlmişdi. 1980-ci illərin əvvəllərində qadın elmi işçilərin ümumi sayı 8500 nəfəri ötmüşdü. O dövrdə elmi işçilərin hər üç nəfərindən biri qadın idi[28] .

---

[27] Народное хозяйство Азербайджанской ССР в 1970 году. Статистический сборник. Баку: ЦСУ при Совете министров Азербайджанской ССР, 1972, с.238; Народное хозяйство Азербайджанской ССР в 1977 году. Статистический сборник. Баку: Азернешр, 1978, с.162; Народное хозяйство Азербайджанской ССР в 1980 году. Статистический сборник. Баку: Азернешр, 1981, с.159; Народное хозяйство Азербайджанской ССР в 1982 году. Статистический сборник. Баку: Азернешр, 1983, с.133; Народное хозяйство Азербайджанской ССР в 1985 году. Статистический сборник. Баку: Азернешр, 1986, с.163; Народное хозяйство Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник. Баку: Азернешр, 1980, с.206; Народное хозяйство Азербайджанской ССР к 60-летию образования СССР. Юбилейный статистический сборник. Баку: Азернешр, 1982, с.194

[28] Qadın və elm // “Azərbaycan qadını”, 1980, № 3, s.10-11

Heydər Əliyevin birinci rəhbərlik dönəmində qadın siyasətinin ən bariz təzahürlərindən biri də hakimiyyət strukturlarında qadınların təmsilçiliyinin durmadan artması idi. 1970-ci illər ərzində ictimai-siyasi həyatda, mədəni-quruculuq işlərində qadınlarımızın fəaliyyəti daha da güclənmiş, xalq təsərrüfatının idarə olunmasında onların iştirakı genişlənmişdi. Bunu belə bir faktda görmək olar ki, o dövrdə respublikamızda istehsalat rəhbəri və mütəxəssis qadınların sayı sənayedə 2 dəfədən çox, tikintidə 3 dəfə artmışdı. Ümumən dövlət və təsərrüfat idarəçiliyi orqanlarının, kooperativ və ictimai qurumların idarə orqanlarının aparatında qadınların təmsilçiliyi 1970-ci ildə 42%-dən 1975-ci ildə 46%-ə yüksəlmişdi.

1980-ci illərin əvvəllərində Azərbaycan SSR Ali Sovetində 450 deputatdan artıq 179-u, yəni 40%-i, Naxçıvan MSSR-nin Ali Sovetində isə 110 deputatdan 52-si (47%) qadın idi.[29]

Sovet siyasi sisteminin təməl ünsürü olan partiya strukturlarında da qadınların sayı artmaqda idi: O dövrdə respublikanın partiya təşkilatlarında 82 minə yaxın kommunist qadın var idi. 1980-ci illərin əvvəllərində 11 rayonun partiya komitəsinin birinci katibi vəzifəsinə qadın təyin olunmuşdu. Bəhs edilən dövrdə 200 nəfərdən artıq qadın Sosialist Əməyi Qəhrəmanı adını daşıyırdı. Onlardan 9 nəfəri Naxçıvan MSSR-i təmsil edirdi.

1972-ci ilin iyunun 15-16-da baş tutmuş Azərbaycan qadınlarının IV qurultayı o dövrdə Azərbaycan qadınlarının ictimai-siyasi həyatında mühüm hadisəyə çevrilmişdi. Bu qurultay həmin illərdə Azərbaycanda vüsət almış və geniş anlamda modernləşmənin yeni mərhələsini bildirən quruculuq işlərində qadınların yerini və vəzifəsini müəyyənləşdirmək baxımından əlamətdar idi. Azərbaycan qadınının yeni zaman kontekstində yeri və rolu haqqında mülahizələr, onun yeni ictimai vəzifələri haqqında düşüncə və mühakimələr Heydər Əliyevin 1974-cü ilin mayın 14-də "Azərbaycan qadını" jurnalının 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda söylədiyi nitqində bitkin ifadəsini tapdı.[30]

Beləliklə, 1970-80-ci illərin əvvəllərində Azərbaycanda qadınların sosial-iqtisadi inkişafının, habelə ictimai-siyasi fəallığının bəzi məqamlarının nəzərdən keçirilməsi bəhs edilən dövrün misilsiz tərəqqi və yüksəliş dövrü olduğunu söyləməyə imkan verir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında gerçəkləşdirilən dövlət qadın siyasəti Azərbaycan qadınının sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatda daha da fəal iştirakının, dövlət və hakimiyyət

---

[29] Cəfərov H. Azərbaycanda gənclər hərəkatı (XX əsr). Bakı: Nurlan, 2009, s.354

[30] Azərbaycan qadınının səadəti. "Azərbaycan qadını" jurnalının 50 illiyinə həsr olunmuş yubiley iclasının materialları. Bakı: Azərnəşr, 1974, s.11-41

orqanlarında daha geniş təmsil olunmasının, onun maddi-texniki səviyyəsinin yüksəlməsinin, mədəni-məişət şəraitinin yaxşılaşmasının təminatçısı oldu. Fəslin ikinci yarımfəsli "**Azərbaycan qadını 1980-ci illərin sonları – 1990-cı illərin əvvəllərinin sistem transformasiyaları şəraitində"** adlanır. 1986-1987-ci illərin aşkarlıq və yenidənqurma ab-havası, onun ardınca isə Azərbaycanın ərazi bütövlüyü və milli azadlığı uğrunda mübarizə Azərbaycan qadınlarının ictimai fəallığının yüksəlişinə səbəb olmuşdu. Bu dövrdə qadın hərəkatının yeni canlanması nəzərə çarpırdı ki, onun da əsas təşkilati forması kimi qadın təşkilatları çıxış edirdi. 1991-ci ildə SSSR-nin süqutu, Azərbaycanın müstəqillik qazanması ölkədə tamamilə yeni ictimai-siyasi mühitin yaranmasına gətirib çıxardı. Yeni vəziyyət qadın təşkilatlarının fəaliyyətinə də təsirsiz ötüşməmişdi. Qadın hərəkatı keyfiyyətcə yeni mərhələyə qədəm basırdı. Qadın təşkilatları artıq hakim partiyanın siyasi-ideoloji sisteminin bəlli sosial-demoqrafik kateqoriyasında "ötürücü kəmər" funksiyasını yerinə yetirməkdən və eyni zamanda qadınların səfərbəredici vasitəsi olmaqdan əl çəkdi. Partiya orqanlarının himayəsi və dəstəyindən məhrum olan qadın təşkilatları ideoloji diktatdan azad və müstəqil şəkildə fəaliyyət göstərmək imkanları qazandı.

1980-ci illərin II yarısında respublikanın iqtisadi inkişafında müşahidə olunan kəskin azalma qadınların vəziyyətinə daha ağır təsir göstərirdi. Ana və uşaq ölümü göstəriciləri 1990-cı illərin əvvəllərində kəskin surətdə artmışdı. 1993-cü ildə doğulan uşaqların sayı 24200 olmuşdu ki, bu, 1988-ci illə müqayisədə 1,1 dəfə az idi. 1996-cı ildə doğuş səviyyəsi daha da azalaraq, 17100 nəfər olmuşdu[31]. Bu göstərici Avropa ölkələrinə nisbətdə 3-5 dəfə çox idi. Göstərilən dövrdə nikaha girənlərin səviyyəsi də kəskin surətdə azalmışdı: əgər 1985-ci ildə hər min nəfərə 10,5 nikah düşürdüsə, 1996-cı ildə bu göstərici 5,1-ə enmişdi. 1990-cı illə müqayisədə 1996-cı ildə qadınların pay çəkisi sənaye sektorunda 46,9%-dən 41,9%-ə, kənd təsərrüfatında 48,2%-dən 42,5%-ə qədər azalmışdı. Bəhs etdiyimiz dövrdə Azərbaycanda qadınlar arasında işsizlik kişilər arasındakı işsizlikdən 1,33 dəfə çox oldu. 1990-cı illərin əvvəllərində qadınların hakimiyyət şaxələrində təmsilçiliyinin azalması müşahidə olunurdu. 1992-ci ildə yaradılmış parlamentin 50 üzvündən cəmi 3 nəfər qadın var idi. 1993-cü ildə icra hakimiyyəti başçısının cəmi 2-si qadın olmuşdu. Gender disproporsiyası məhkəmə sistemində də özünü göstərirdi: hər 100 kişi hakimin müqabilində 18,9 qadın hakim, hər 100 kişi vəkilin müqabilində 21,3 qadın vəkil, hər 100 kişi

[31] Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabat. Bakı: Göytürk, 1995, s.19, 23; Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabat. Bakı: SCALA, 1998, s.25; Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabat. Bakı: QAPP-Poliqraf, 1999, s.16; Müstəqil Azərbaycan 10 il. Bakı: Səda, 2001, s.61

hüquqşünasın müqabilində 38 qadın hüquqşünas, hər 100 kişi prokurorun müqabilində 2,8 prokuror qadın olmuşdur.[32] Bəhs edilən illərdə sosial transformasiyalardan ən çox zərər çəkən, sosial-iqtisadi durumu daha çox pisləşən, gətirilən faktlardan aydın olduğu kimi, qadınlar idi.

Dissertasiyanın II fəsli **Azərbaycan Respublikasında dövlət qadın siyasətinin** təhlilinə həsr edilmişdir. "**Dövlət qadın siyasətinin normativ-hüquqi bazasının təşəkkülü"** adlanan birinci yarımfəsildə 1993-1997-ci illərdə ölkədə dövlət qadın siyasətinin müasir qanunvericilik bazasının formalaşdırılması prosesi öyrənilmişdir. Qeyd edilir ki, Azərbaycanda dövlət qadın siyasətinin mahiyyət prinsiplərinin müəyyən edilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə görkəmli dövlət xadiminin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycan qadınının inkişafına, müxtəlif sahələrdə özünü gerçəkləşdirilməsinə şərait yaratdı. Heydər Əliyevin qətiyyətli addımları nəticəsində qadınların ictimai-siyasi transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması, dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan qadınının sosial-siyasi statusunda keyfiyyət dəyişiklikləri, onun dayanıqlı inkişaf trayektoriyasına qədəm basması ümumən Azərbaycan dövlətçiliyinin faktiki olaraq formalaşmasından, möhkəmlənməsindən və tərəqqisindən keçirdi. 1990-cı illərin ortalarına doğru ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması qadınlara münasibətdə daha fəal siyasət yürütmək baxımından geniş imkanlar açdı. Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının qarantı olan Konstitusiya qadın haqları və azadlıqlarının da ən ali qanunvericilik səviyyəsində təminatçısı, qadınların kişilərlə bərabər hüququnu və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazası oldu.

Azərbaycanda qadın hüquqlarının və gender bərabərliyinin keşiyində duran 150-yə yaxın sənəd imzalanmışdır. Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası qadın hüquqlarının qorunması üzrə demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə tərəfdar çıxmışdır. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənablarının 1997-ci ilin iyunun 26-da imzaladığı "Əhalinin sağlamlığının qorunması haqqında" qanunun 17-ci maddəsi ilə hər bir qadın hamiləlik, doğuş və doğuşdan sonrakı dövrdə dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış tibbi yardımla pulsuz təmin olunurdu. Bununla da ölkəmizin ali hakimiyyəti "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasının 12-ci maddəsi üzrə nəzərdə tutulmuş

[32] Azərbaycan Respublikasında İnsan İnkişafı haqqında Hesabat. Bakı: Göytürk, 1995, s.63

müvafiq öhdəliyə tam əməl etmiş olurdu. 1990-cı illərin sonlarına doğru Ümummilli lider Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində qadınların dövlət idarəçiliyinə cəlb olunmalarında müəyyən pozitiv irəliləyişlər hiss olunurdu. 1995-ci ildə Milli Məclisdə qadınlar 15 deputatla təmsil olunmuşdular. Parlamentin təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədri və Aparatın Sosial qanunvericilik şöbəsinin müdiri vəzifələrini qadınlar tutmuşdular. Həmçinin Prezidentin İcra Aparatının Humanitar siyasət şöbəsinin müdiri, Azərbaycan Respublikası Prezidentinin köməkçilərindən biri, Ali İqtisad Məhkəməsinin sədri, ədliyyə naziri, səhiyyə nazirinin müavini, Nazirlər Kabinetinin şöbə müdirləri (2 nəfər) qadınlar idi. Beləliklə, 1993-1997-ci illər istər hüquqi dövlət quruculuğu, istərsə də gender qanunvericiliyinin formalaşması sahəsində olduqca mühüm mərhələni təşkil edir. 1993-1997-ci illərdə əldə edilmiş təcrübə və yaradılmış hüquqi-normativ baza sonrakı dövrdə gender düzəninin yeni institusional səciyyə kəsb etməsini, qadınlarımızın ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında daha fəal iştirakını, gender bərabərliyinin de-jure səviyyədən tədricən de-facto səviyyəyə keçidini təmin edən möhkəm təmələ çevrildi.

Fəslin ikinci yarımfəslində **1998-2003-cü illərdə Heydər Əliyevin Azərbaycanda dövlət qadın siyasətinin institusional əsaslarının və strateji istiqamətlərinin müəyyənləşdirilməsi** sahəsində fəaliyyəti araşdırılmışdır. Bu illərdə Azərbaycan dövlət institutlarının müasir demokratik standartlara uyğun yenidən qurulması və bu prosesə müvafiq olaraq hüquqi-normativ qanunvericilik bazasında zəruri islahatların həyata keçirilməsi, başqa sözlə, yeni məcəllələrin qəbul edilməsi mərhələsinə qədəm basmışdı. Heydər Əliyevin həyata keçirdiyi qadın siyasəti bir neçə mühüm istiqaməti ehtiva edirdi: qadınların hüquqi statusunun təkmilləşdirilməsini, gender bərabərliyinin hüquqi aspektlərinin əməli surətdə təmin olunması; qadınların sosial durumunun yaxşılaşdırılması, onların keyfiyyətli təhsillə təmin olunması, cəmiyyətdə ictimai mövqelərinin möhkəmləndirilməsi, sosial hüquqlarının hərtərəfli şəkildə həyata keçirilməsi; qadınların iqtisadi fəaliyyətlərinin təşviqi üçün kompleks addımlar atılırdı; qadın sahibkarlığının stimullaşdırılması, qadınların xalq təsərrüfatının müxtəlif sahələrində özlərini təsdiq etmələri üçün şəraitin yaradılması; qadınların siyasi həyatda daha fəal iştirakı, vətəndaş cəmiyyətin qurumlarının işinə canlı şəkildə qatılması; qadınların mədəni yüksəlişi

Ulu Öndərin göstərilən dövrdə Azərbaycan qadınının problemlərinin institusional qaydada həlli istiqamətində atdığı addımlar sırasında 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Qadın problemləri üzrə Dövlət Komitəsinin yaradılması mühüm yer tutur. Prezidentin həmin tarixli “Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında” adlanan digər sərəncamı ilə

Nazirlər Kabinetinə ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunu artırmaq məqsədi ilə müvafiq təkliflər hazırlamaq tapşırıldı.[33] Faktiki olaraq bu sənədlə Ulu Öndər hökumətin yaxın və orta perspektivdə sözügedən sferada ilk növbədə həll etməli olacağı vəzifələri müəyyən edirdi. Heydər Əliyevin 20 fevral 1998-ci il tarixli fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikası Qadın problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamədə" bu qurumun son dərəcə geniş vəzifələri müəyyən edilmişdi.[34] "Əsasnamədə" Komitənin geniş hüquqları da öz əksini tapmışdı. Bununla da Azərbaycan post-sovet məkanında gender bərabərliyi strategiyasını institusional qaydada təsbit edən ilk dövlət olmuşdur. 2000-ci illərin əvvəllərində gender bərabərliyi məqsədlərini həyata keçirmək, hökumət və vətəndaş cəmiyyəti arasında gender məsələləri üzrə aktiv əməkdaşlığa kömək etmək məqsədilə QPDK qadın QHT-ləri və vətəndaş cəmiyyətinin qrupları ilə daha möhkəm əlaqələrin qurulmasına nail olmuşdu. Azərbaycanda gender siyasətinin hüquqi-normativ bazasının möhkəmləndirilməsində mühüm hadisələrdən biri 2000-ci ilin martın 6-da Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi" haqqında fərmanın imzalanması olmuşdur.[35] Fərmanla siyasi qərarların qəbulu prosesinə qadınların cəlb edilməsi ilə bağlı kompleks tədbirlər müəyyən edilmişdi. Bu sənəd Respublikamızın bütün dövlət strukturlarında qadın və kişilər arasında bərabərliyin təmin olunmasını, müvafiq dövlət proqramlarının hazırlaması ilə qaçqın və məcburi köçkün qadınların işlə təmin olunması, gender nöqteyi-nəzərindən qanunvericiliyə yenidən baxılmasını nəzərdə tuturdu. 2000-ci ilin iyun ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı" qəbul etmişdir. MFP-nin hazırlanması prosesində bütün hökumət strukturları, həmçinin bəzi qeyri-hökumət təşkilatları iştirak etmişdi.[36] Bu proqram milli prioritetləri nəzərə alaraq, qadınlarla əlaqədar müxtəlif növ problemlərin geniş spektrini əhatə edən Pekin Platformasının 12 strategiyası əsasında hazırlanmışdır. 2000-ci ildə keçirilən seçkilər nəticəsində ölkə

---

[33] "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 14 yanvar 1998-ci il. "Azərbaycan", 1998, 15 yanvar

[34] "Azərbaycan Respublikasının Qadın problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə" / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 28 fevral 1998-ci il, № 2, s.376-378

[35] Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Azərbaycan", 2000, 7 mart

[36] Azərbaycan. Ölkə üzrə gender qiymətləndirilməsi. Bakı: Asiya İnkişaf Bankı, 2005, s.27

parlamentinin 125 üzvündən 13-ünü, yəni 11%-ini, habelə Parlament Aparatının inzibati heyətinin 20%-ni, Milli Məclisin komitə rəhbərlərinin 7%-ni qadınlar təşkil edirdilər. Bu, BMT-nin İqtisadi və Sosial Şurasının müəyyən etdiyi 30%-lik kvotadan aşağı olsa da, regional ölkələr (Ermənistan, İran, Türkiyə, Rusiya, Gürcüstan) ilə müqayisədə yüksək idi.[37] Sözügedən dövrdə ölkədə qadın əməyinin müdafiəsinin hüquqi təminatı sahəsində müəyyən addımlar atılmışdı. Ölkənin qanunvericilik bazasında, o cümlədən "Məşğulluq haqqında" Qanunda, 2001-ci ildən etibarən qadınların vəziyyətinə dair dəyişikliklərin və əlavələrin edildiyini xüsusilə qeyd etmək lazımdır. Yeni qəbul edilmiş məcəllələr, xüsusən Əmək və Ailə məcəllələri qadınların maraqlarını müəyyən dərəcədə tənzimləyir və onların hüquqlarını təmin edirdi. Məcəllələrdə cinsi bərabərlik prinsipi de-yure daha hərtərəfli əksini tapırdı. Ailə Məcəlləsi də qadın hüquqlarının keşiyində duran önəmli hüquqi-normativ aktdır. Dissertasiyada bütüm məcəllələr gender və qadın hüquqları kontekstindən geniş təhlil edilmişdir.

Beləliklə, ümummilli lider Heydər Əliyevin strateji kursu qadınların sosial həyatın bütün sahələrinə fəal surətdə, kişilərlə bərabər cəlb olunmasını nəzərdə tutur. Bəhs etdiyimiz dövrdə əvvəlki illərdə yaradılmış hüquqi-normativ baza daha da dərinləşdirilmiş, mövcud gender siyasəti yeni institusional səciyyə kəsb etmişdir. Ölkə konstitusiyasında qadınların hüquq və azadlıqları barədə mövcud müddəalar sonrakı illərdə qəbul edilmiş qanunverici aktları ilə gerçəkləşdirilməyə başlanılmışdı. Qadın problemləri üzrə Dövlət Komitəsinin yaradılması, "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi" haqqında fərmanın imzalanması, Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi, müasir demokratik hüquq standartlarına cavab verən məcəllələrin qəbul edilməsi və bu məcəllələrdə qadın hüquqlarına hərtərəfli təminatının verilməsi məhz de-fakto bərabərliyin bərqərar olması istiqamətində mühüm addımlar sayıla bilər.

Fəslin üçüncü, "**Azərbaycanda dövlət qadın siyasətinin yeni mərhələsi**" adlanan yarımfəsliində 2003-2015-ci illərdə qadın siyasətinə dair qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində pozitiv irəliləyişlərdən, qadınların siyasi proseslərdə iştirakının yüksəlməsindən bəhs edilir. İlham Əliyev cənabları Ulu Öndər Heydər Əliyevin gender siyasətini davam etdirməklə, onu məzmun və keyfiyyət baxımından yeni mərhələyə çıxarmağa müvəffəq olmuşdur. Azərbaycanda qadın siyasətinin yeni mərhələyə keçməsində, qadın hüquqlarının qorunması ilə bağlı qanunvericilik bazasının zənginləşməsində Azərbaycan

[37] Cəfərova T. Qərar qəbulu prosesində qadınların iştirakı / Gender. Mədəniyyət (Məqalələr toplusu). Bakı: Adiloğlu, 2003, s.133

Respublikasının birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın müstəsna xidmətləri var. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti milli-mənəvi dəyərlərə söykənən və intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha çox yayılmasına yönəlmişdir. 2006-cı il fevralın 6-da Respublika Prezidentinin Fərmanı ilə Qadın problemləri üzrə Dövlət Komitəsi ləğv edildi və bu qurumun bazasında daha çox səlahiyyətlərə malik olan yeni dövlət strukturu – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi təşkil olundu. Prezident İlham Əliyevin 9 avqust 2006-cı il tarixli fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamədə" bu qurumun son dərəcə geniş vəzifələri müəyyən edilmişdi.[38] Əsasnaməyə sonrakı illərdə 21 dəyişiklik və əlavələr edilmişdir. Əslində qurumun səlahiyyət dairəsinin genişlənməsi onun institusional təkamülündən xəbər verirdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanına müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 2007-ci il 25 oktyabr tarixli Fərmanı ilə Komitənin Əsasnaməsi və ştat sayı təsdiq olunmuşdur.[39] 2006-cı ilin oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu ölkəmizdə həyata keçirilən dövlət qadın siyasətinin məntiqi təzahürü, gender bərabərliyinin ali dövlət qanunvericiliyi səviyyəsində təşviqi sahəsində atılmış mühüm addım hesab edilir. Qanunun əsas məqsədi kimi kişi və qadınların ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması göstərilmişdir. Qanunda dövlət gender siyasətinin əsas istiqamətləri müəyyənləşdirilmişdir. 2010-cu ildə "Məişət zorakılığının qarşısının

[38] Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin, Komitənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 9 avqust 2006 / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 31 avqust 2006-cı il, №8, s. 1762; Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 fevral 2006 / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 28 fevral 2006-cı il, №2, s.248

[39] Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin cari arxivi. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2010-cu ildə gördüyü işlər haqqında Hesabat, s.1

alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanunun qəbul edilməsində Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın xüsusi xidmətlərini qeyd etməliyik. Belə bir qanunun qəbul edilməsi dövlətimizin qadınların ictimai hüquqlarının qorunması sahəsində ən qabaqcıl hüquqi praktikaları fəal surətdə həyata keçirməsindən xəbər verir. Qanunun qəbulundan sonra zorakılığa qarşı mübarizə daha sistemli xarakter almışdır. Bəhs edilən dövrdə qadın hüququ, qadın təhsili, qadın sağlamlığı ilə bağlı məsələlər və ümumən qadının ictimai həyatda mövqeyi Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi.

Qadınlarla bağlı problemlər, təkcə AQUPDK və ya ombudsman institutunun deyil, həmçinin Xarici işlər, Daxili İşlər, Ədliyyə, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə Nazirlikləri, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və s. dövlət orqanlarının maraq və fəaliyyət dairəsinə daxildir. Məhz artan sistemlilik dövlətimizin hüquqi dövlət quruculuğu, onun kontekstində isə həmçinin gender sferasındakı siyasətinin müasir mərhələsinin səciyyəvi cəhətini təşkil edir. "Azərbaycan – 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında gender bərabərliyinin təmin olunması və ailə institutunun inkişaf etdirilməsi dövlətimizin modernləşmə strategiyasının prioritet vəzifələri sırasında sadalanmışdır.[40] Həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən biri əhalinin, o cümlədən də qadınların reproduktiv sağlamlığının qorunmasına dair həyata keçirilən kompleks tədbirlərdir. 2006-cı ildə Nazirlər Kabinetinin qərarı ilə "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" təsdiq edilmişdi. Bu proqram Minilliyin 4-cü (Uşaq ölümünün azaldılması) və 5-ci (Anaların sağlamlığının qorunması) İnkişaf məqsədlərinə nail olunması məqsədini güdür və əhalinin reproduktiv sağlamlığının qorunmasını təşkilini və təhlükəsiz analığı təmin edir.

İlham Əliyev rəhbərliyinin Ulu Öndər tərəfindən əsas prinsipləri müəyyənləşdirilmiş dövlət qadın siyasətinin uğurları və nailiyyətləri müxtəlif hesabatlarda da öz əksini tapmışdır. Ölkədə həyata keçirilən uğurlu qadın siyasətinin ən mühüm təzahürlərindən biri seçkili orqanlarda, idarəetmə strukturlarında qadınların sayının artmasıdır. İlk növbədə qeyd edək ki, əgər 1990-cı ildə bütün deputatların 4,3%-ni, 2000-ci ildə 10,7%-ni qadınlar təşkil edirdisə, bu gün ölkə parlamentində qadınların xüsusi çəkisi 16%-ə çatmışdır. 2005-ci ilin noyabrında keçirilmiş seçkilər nəticəsində 3-cü çağırış Milli Məclisdə 14 nəfər xanım millət vəkili təmsil olunmuşdusa, 2010-cu ilin noyabrında 4-cü

---

[40] "Azərbaycan – 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası, "Azərbaycan", 2012, 30 dekabr

çağırış Milli Məclisə seçkilərdə 695 deputatlığa namizədlərdən 100 nəfər qadın olmuş və parlamentə 20 qadın seçilə bilmişdi.[41] 2015-ci ilin noyabrında parlamentə 21 qadın seçilmişdir. Parlament sədrinin üç müavinindən biri və komitələrdən birinin sədri qadındır. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçilən qadınların sayı hər seçki siklində artım nümayiş etdirməkdədir. 2010-cu ilin noyabrında Ali Məclisə seçilmiş 45 deputatdan 6-sı qadındır. 2014-cü ilin dekabrında keçirilmiş bələdiyyə seçkilərində bələdiyyə üzvü seçilmiş qadınların sayı artaraq, 2009-cu ildəki 26,1%-dən 35%-ə yüksəlmişdir.[42] Bu faktın özü qadın iştirakçılığının artımına yönəlmiş dövlət siyasətinin növbəti uğurudur. Ölkəmizdə bir Dövlət Komitəsinin sədri, bir Dövlət Komissiyasının sədri, 3 nazir müavini, 3 ali təhsil məktəbinin rektoru, Naxçıvan Muxtar Respublikasının Baş Nazirinin müavini və Azərbaycan Respublikası İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) və Naxçıvan Muxtar Respublikasının Ombudsmanı qadın idi. 85 rayon üzrə icra hakimiyyəti başçılarının müavinləri vəzifəsində çalışan qadınların sayı son illərdə nəzərə çarpacaq dərəcədə artmışdır. 2005-ci il ilə müqayisədə (12 nəfər) 2015-ci ildə isə 78 nəfərə çatmışdır.

Səhiyyə, Təhsil və Əmək və Sosial Müdafiə Nazirliklərində uyğun olaraq qadın əməkdaşların sayı 79,5%, 68% və 60,8% olduğu halda rəhbər vəzifələrdə qadınların sayı uyğun olaraq 37% , 41,3% və 24,8%-dir.[43]

Naxçıvan Muxtar Respublikasında 258 qadın bələdiyyələrdə təmsil olunur; 8 qadın bələdiyyə sədri (bütün sədrlərin 0,004%-i), 2 qadın isə sədr müavini (bütün sədr müavinlərinin 0,001%-i) seçilmişdir. Bu, əlbəttə ki, olduqca aşağı göstəricilərdir. Hazırda Azərbaycan Respublikasının dövlət qurumlarında 30 min 108 nəfər dövlət qulluqçusu çalışır və onların 28,5 faizi qadınlardır.[44] Beləliklə, qadınların idarəçiliyə cəlb olunmaları ilə bağlı görülən işlərin həcmi, əldə olunmuş nailiyyətlər sevindiricidir. Lakin qeyd olunmalıdır ki, ölkə əhalisinin təqribən 51%-ini təşkil edən qadınlar hələ də hakimiyyət orqanlarında və rəhbər vəzifələrdə öz saylarına proporsional şəkildə təmsil olunmamışlar.

---

[41] Пятый периодический доклад, представленный Правительством Азербайджанской Республики в Комитет по ликвидации дискриминации в отношении женщин ООН, 11 марта 2013 г.,с .21; Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti (2010-cu il üzrə illik məruzənin qısa icmalı). Bakı: Qanun, 2011, s.71-72

[42] Hüseynova H. Qadınlarımızın əldə etdikləri uğurlar bizi çox sevindirir. “Səs” qəz., Bakı, 2015, 6 mart

[43] Пятый периодический доклад, представленный Правительством Азербайджанской Республики в Комитет по ликвидации дискриминации в отношении женщин ООН, 11 марта 2013 г., с.22-23

[44] http://teleqraf.com/news/60227

Dissertasiyanın III fəsli **"Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında qadınların iştirakı"** adlanır. **"Azərbaycan Respublikasının sosial-iqtisadi tərəqqisi və qadınlar" sərlövhəli** birinci yarımfəsildə göstərilir ki, 1990-cı illərin II yarısında iqtisadiyyatın müxtəlif sahələrində məşğulluğun qadın və kişilərin arasında bölünməsində dəyişiklər baş vermişdir. Sənaye, kənd təsərrüfatı, kreditləşmə, sığorta, kommunal təsərrüfat sahələrində qadınların məşğulluğunun azalması müşahidə olunur. Qadınların minimal iştirak etdikləri sahələr tikinti (13,5%) və nəqliyyat (14,6%), maksimal iştirak etdikləri sahələr isə səhiyyə (70,2%), təhsil və mədəniyyət idi (67,9%).[45] Qadınların iqtisadi fəal əhali tərkibində xüsusi çəkisi 1990-cı ildə 48,6%-dən 2000-ci ildə 48,2%-ə ensə də, son illərdə az da olsa artmış və 2014-cü ildə 48,85% göstəricisinə çatmışdır. Xüsusi peşə biliyi və texniki hazırlıq tələb edən qadın işçilərin kişilərə nisbətində Azərbaycan dünyada ilk yeri tutur, hər 100 xüsusi peşəkarlıq tələb edən işçidən 53-ü qadındır. 2013-cü ilin statistikasına əsasən, 2 milyon 183 min məşğul qadının 43,6%-i kənd və meşə təsərrüfatları və balıqçılıq sahəsində, 17,6%-i ticarətdə və nəqliyyat vasitələrinin təmiri sahəsində, 11,4%-i təhsildə, 5,6%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsində çalışmışdır.

Narahatlıq doğuran məqam odur ki, istər işsizliyin gender strukturunda, istərsə də ümumən işsiz qadınların strukturunda ali təhsillilərin xüsusi çəkisinin artması müşahidə olunur. Əgər 2004-cü ildə ümumi işsizlərin ali təhsillilər kateqoriyasında qadınlar 39,7%, kişilər isə 60,3% təşkil edirdisə, sonrakı illərdə bu nisbət qadınların ziyanına dəyişmişdir; 2013-cü ildə bu kateqoriya üzrə qadınlar artıq kişiləri keçərək, birinci sıraya yüksəlmişlər (50,1%). Eyni zamanda işsiz qadınların strukturunda da analoji meyl nəzərə çarpır: əgər 2004-cü ildə işsiz qadınlardan 6,8%-i ali təhsilli idisə, 2013-cü ildə bu rəqəm artaraq, 14,3%-ə çatmışdır. Ümumiyyətlə, işsiz əhalinin cins bölgüsünün bütün kateqoriyaları üzrə qadınlar üstünlük təşkil edirlər. Bu, əmək bazarında qadınlar üçün əlverişsiz konyunkturanın mövcudluğundan xəbər verir.[46] 1991-2013-cü illər ərzində əmək qabiliyyətli qadınların sayı təqribən 63,64% artmışdır. 2000-2013-cü illərdə işsiz qadınların sayında 130100 nəfər və ya 48,5%, işsiz kişilərin sayında isə 148000 nəfər və ya 60% azalma müşahidə olunmuş, qadın yoxsulluğu əvvəlki illərlə müqayisədə öz kəsərini xeyli dərəcədə itirmişdir. Bütün bunlar, şübhəsiz ki, ölkə iqtisadiyyatının sürətli inkişafının, habelə müxtəlif dövlət proqramlarının uğurla

---

[45] Abdullayeva A. Keçid dövründə qadınların əmək bazarında vəziyyəti / Gender. Mədəniyyət (Məqalələr toplusu). Bakı: Adiloğlu, 2003, s.115

[46] Azərbaycan. Yaşayış Səviyyəsinin Qiymətləndirilməsinə dair Hesabat. İnsan İnkişafı Sektoru. Avropa və Mərkəzi Asiya Regionu, 1/28/2010. Dünya Bankının Sənədi, Bakı, 2010, s.64

həyata keçirilməsinin nəticəsidir. Lakin Azərbaycan qadınının son 15 ildə şübhəsiz tərəqqisi ilə yanaşı, qadınların iqtisadi fəallığı, məşğulluğu və əmək haqları ilə bağlı hələ də öz aktuallığını saxlayan müəyyən neqativ meyllər qalmaqdadır. İqtisadiyyatın fəaliyyət növlərində qadın və kişilərin qeyri-mütənasib təmsil olunmaları, təsərrüfatın "kişi" və "qadın" sahələri kimi qeyri-rəsmi bölgüsünün saxlanılması, işsizliyin ümumi strukturunda qadınların xüsusi çəkisinin yüksək olması, bu zaman ali təhsilli işsiz qadınların yetərincə çox olması, iqtisadiyyatın həm dövlət, həm özəl sektorunda gender bölgüsünün piramidavari strukturunun saxlanılması, qadınların daha az ödənişli qeyri-formal sektora kişilərdən daha çox müraciət etmələri, qanunvericilikdə də təsbit olunmuş "bərabər əməyə görə bərabər ödəmə" prinsipinin hələ də tam həyata keçirilməməsi, qadın və kişi əmək haqları arasında disproporsiyanın hələ də qalması bu qəbil problemlərdəndir. Ancaq Azərbaycan hökuməti bu problemləri daim diqqət mərkəzində saxlayır və onların həlli istiqamətində addımlar atır.

Fəslin ikinci yarımfəslində **Azərbaycanda qadın sahibkarlığının inkişafı məsələləri** nəzərdən keçirilmişdir. Qadınlara münasibətdə dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biri qadınlar arasında sahibkarlığın və özünüməşğulluğun inkişaf etdirilməsi təşkil edir. Bəhs edilən dövrdə əmək qabiliyyətli qadınların 69.2%-i özəl sektorda, 30,8%-i isə dövlət sektorunda çalışırdı. Özəl sektorda çalışanların yalnız 3%-nin öz şəxsi biznesi var idi. İqtisadiyyatın və sosial sahələr üzrə idarəetmə strukturlarında qadınlar ümumi çalışanların 33%-ni təşkil edirdi. Bizneslə məşğul olan qadınlar əsasən mikro və kiçik müəssisələrdə fəaliyyət göstərirdilər və onların çox az hissəsi orta və böyük müəssisələrdə çalışırdı. Yeri gəlmişkən, bəzi araşdırmalara görə, Azərbaycanda qeydiyyatdan keçmiş müəssisələrin yalnız 14%-i qadınlara məxsus idi; kredit alan qadınların sayı 32%, kişilərin isə 68% təşkil edirdi.[47] Ölkədə aparılan məqsədyönlü kursun nəticəsi olaraq artıq 1990-cı illərin sonu – 2000-ci illərin əvvəllərində Azərbaycanda sayca o qədər də çox olmasa da, sahibkar qadınlar zümrəsi formalaşmışdı: qeyd edilən dövrdə kiçik və orta sahibkarların 7-8%-ini qadınlar təşkil edirdi. Azərbaycan Respublikasının Prezidentinin 2002-ci ilin aprel və may aylarında yerli və xarici sahibkarlarla görüşlərində 100-ə yaxın yerli və xarici qadın sahibkar iştirak etmişdi. Həmin görüşlər ölkədə sahibkarlığın inkişafında yeni mərhələnin – qadınların sahibkarlıq fəaliyyətinə cəlb edilməsin yolu ilə onların işgüzarlıq, əqli və intellektual potensialından səmərəli istifadə edilməsinin əsası qoyulurdu. Prezident İlham Əliyevin hakimiyyəti dövründə, artıq dəfələrlə qeyd etdiyimiz kimi, sahibkar qadınların fəaliyyəti üçün hüquqi-

[47] Qadınların biznesinə kim pul yatırar, biznesinfo.az portalı; http://www.biznesinfo.az/observer/womeninbusiness/

normativ baza daha da təkmilləşdirilmişdir. 2008-ci ilin 1 yanvar tarixinə olan məlumata əsasən sahibkarlıqla məşğul olan qadınların sayı 15%-dək artmışdı. Fəqət qadınların arasında yüksək biznes mövqeləri tutanların sayı hələ də qənaətbəxş deyildir. Qadın sahibkarlığının təşviqi ölkə rəhbərliyinin iqtisadi strategiyasının mühüm tərkib hissələrindən və prioritetlərindən biridir ki, bu da qeyd edildiyi kimi, «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramında» da xüsusi olaraq vurğulanmışdır. Qadın sahibkarlığının inkişaf etdirilməsi cəmiyyətdə mövcud olan gender bərabərsizliyinin aradan qaldırılması ilə yanaşı, yeni iş yerlərinin açılması ilə əhalinin qismən yoxsulluğunun aradan götürülməsinə və qadınların iqtisadi nüfuzunun artmasına kömək edir. Qadın sahibkarların problemləri ilə daha fəal məşğul olmaq məqsədilə 2005-ci ildə Qadın Sahibkarların Assosiasiyası təsis edilmişdir. Qadınların biznes sahələri yaratması üçün güzəştli kreditlərin verilməsi, evdar qadınların sahibkarlığa cəlb olunması, eləcə də respublikanın ucqar və dağlıq regionlarında, məcburi köçkünlərin sıx məskunlaşdığı ərazilərdə yaşayan qadınların özəl biznes və aqrar təsərrüfatlarını yaratması üçün tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, son illərdə qadın sahibkarların sayının artdığı müşahidə olunur. 2002-2013-cü illər ərzində 2070 sahibkar qadına 46,2 milyon manat dövlətin güzəştli kreditləri verilmişdir ki, bu da 3000-dək yeni iş yerinin açılmasına səbəb olmuşdur. Təkcə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə 2012-ci ildə 188 qadın sahibkara 3,6 milyon manat dövlətin güzəştli kreditləri verilmişdir. Verilmiş güzəştli kreditlər hesabına 433 yeni iş yerinin yaradılması imkanı yaranmışdır.[48] 2012-ci ilin sonlarına dair məlumata əsasən, ölkədə 40063 sahibkar qadın var idi ki, onlardan 22377 nəfəri aktiv fəaliyyətlə məşğul idi. Sahibkar qadınların 59,9 faizi regionlarda, 40,1 faizi isə Bakıda qeydiyyatdan keçmişdir. Azərbaycanda fəaliyyət göstərən sahibkar qadınlar başlıca olaraq yüngül sənayedə, toxuculuq sənayesində, xalçaçılıqda, tətbiqi sənətlərdə, sənətkar məmulatlarının hazırlanmasında, hüquqda, elm və təhsildə, yeyinti sənayesində, kənd təsərrüfatında, ticarət və xidmətlərdə fəaldırlar.

**Azərbaycan qadınlarının sosial-mədəni inkişafı** məsələləri fəslin üçüncü yarımfəslində təhlil edilmişdir. Son illərdə ailə planlaşdırılması, hamiləlik, doğuş və doğuşdan sonrakı dövrdə qadınlara səhiyyə xidmətlərinin təşkilinə müstəsna diqqət yetirilməkdədir.1990-cı illərdə ana ölümünün dinamikasında kəskin artım müşahidə edilirdi. 1990-1999-cu illərdə hər 100 min nəfər diri doğulmuş uşağa düşən ana ölümü əmsalı 4,66 dəfə yüksəlmişdi: 9,3-dən 43,4-ə. Sonrakı illərdə bu

[48] Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi. 2012-ci il üzrə fəaliyyət haqqında Hesabat. Bakı, 2013, s.45

göstərici bir qədər sabitləşmiş, 14,6-ya enmişdir. Ümumilikdə 2014-cü ildə ana ölümü 2013-cü illə müqayisədə 0,7 faiz azalmışdır. Körpə ölümü statistikasında da azalma müşahidə olunur. Hər min nəfər diri doğulana düşən körpü ölümü əmsalı 1995-ci ildə 25,3-dən 2013-cü ildə 10,8-ə enmişdi. 2013-cü ilin məlumatlarına əsasən, ölkəmizdə tibb müəssisələrində 19164 qadın həkim çalışmışdır ki, bu da ümumən həkimlərin 66,7%-ni təşkil edir.

Müstəqillik dönəmində Azərbaycan qadınlarının təhsili sahəsində mühüm keyfiyyət və kəmiyyət dəyişiklikləri baş vermişdir. Qadınların savadlılıq səviyyəsi 1989-cu illə müqayisədə 1999-cu ildə 95,9 faizdən 98,2 faizə, 2009-cu ilin siyahıyaalınmasının nəticələrinə görə isə 99,7 faizə yüksəlmişdir. Elə həmin siyahıyaalmanın yekunlarına görə, 2009-cu ildə 20-54 yaşlarında qadınların 76,8%-i tam orta təhsilə, 11,7%-i xüsusi orta təhsilə, 12,5%-i isə ali təhsilə malik idi. Texniki-peşə təhsili alanların strukturunda qadınların pay çəkisi 2002-ci ildə 33,6%-dən 2013-cü ildə 47,9%-ə, ali məktəblərdə, aspirantura və doktoranturada təhsil alan qızların pay çəkisi isə müvafiq olaraq 44,8%-dən 47,8%-dək yüksəlmişdir. Bu rəqəmlər nəinki təhsil alan qızların strukturunda texniki-peşə və ali təhsil növlərinin xüsusi çəkisinin artmasından, həmçinin sözügedən növlərdə gender bölgüsünün qadınların xeyrinə dəyişməsindən xəbər verir. Naxçıvan Muxtar Respublikasında son illərdə ümumtəhsil məktəblərində təhsil alan qızların sayında xoşagəlməz tendensiya müşahidə olunmaqdadır: muxtar respublikada ümumən 18 yaşınadək qadınların sayı artdığı halda, məktəblərdə oxuyan qızların sayında azalma qeydə alınmaqdadır. Belə ki, məsələn, əgər 2010-cu ilin əvvəllərində ümumtəhsil məktəblərində 24353 nəfər qız təhsil alırdısa, 2014-cü ilin yanvarın 1-nə olan məlumatlara əsasən, bu rəqəm 20600 nəfərədək azalmışdır.[49] 2000-ci ildən başlayaraq, Azərbaycanın ixtisaslaşmış orta təhsil müəssisələrində təhsil alan tələbələrin ümumi sayının təxminən 67%-ni qızlar təşkil edir. 2013/2014-cü tədris ilində onların sayı 41244 nəfərə çatmışdır. Qadınlar əsasən pedaqoji, səhiyyə, mədəniyyət və incəsənət, iqtisadiyyat və idarəetmə ixtisasları üzrə təhsil alırlar. Bu faktlar Azərbaycanda qadınların ali təhsilə marağının artdığını bariz şəkildə göstərir. Dövlət ali məktəblərində təhsil alan qadınların sayı ötən illər ərzində 1,76 dəfə artmışdır. 2013/14-cü tədris ilində bu göstərici qadınların xeyrinə önəmli dərəcədə dəyişmiş və 49,3 faizin 50,7 faiz nisbətində olmuşdu. Qadınlar əsasən pedaqoji, səhiyyə, təbiət-texniki, əmtəəşünaslıq, qida məhsullarının texnologiyası, təbiət elmləri, eləcə də mədəniyyət və incəsənət ixtisaslarına üstünlük verirlər. 2006-2013-cü illərdə

[49] Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin cari arxivi. Naxçıvan Muxtar Respublikasında yaşayan ailələr, qadınlar və uşaqlar haqqında 2010-cu ilin yanvarın 1-nə olan məlumat;

professor-müəllim heyətinin tərkibində qadınların sayı 5494 nəfərdən 6784 nəfərədək artmışdır. Ölkənin elmi-tədqiqat institutlarında qadınlar kişilərlə bərabər fəal yaradıcı işlə məşğul olurlar. Elm sahəsində çalışan qadınların sayı ilə kişilərin sayı arasında fərqin olmasına baxmayaraq, bu fərq o qədər də böyük deyil. Bütövlükdə, elm sahəsində çalışanlar arasında qadınlar 53 faiz təşkil edir ki, bu da bir sıra inkişaf etməkdə olan ölkələrdəki faizə yaxındır. 2004-2013-cü illərdə elmi tədqiqatlarla məşğul olan qadınların sayı 6110 nəfərdən 8419 nəfərədək artmışdır. Son illərin tendensiyası göstərir ki, təbiət, kənd təsərrüfatı, texniki elmlər üzrə tədqiqat aparan qadınların pay çəkisində azalma müşahidə olunsa da, humanitar, ictimai, tibb elmləri üzrə artım yaşanmaqdadır. 2012-ci ilin məlumatlarına əsasən, Elmlər Akademiyasında çalışan 9937 əməkdaşın 5521 nəfəri, habelə 33 institut direktorundan 7-si, 545 elmlər doktorundan 106-sı, 4694 nəfər elmi işçidən 2342-si qadınlar idi[50]. Ölkədə aspirantura və doktorantura üzrə təhsilini artıranların sayı durmadan artmaqdadır. 1997-2013-cü illərdə qadın aspirantların sayı təqribən 3,2 dəfə, doktorantların sayı isə 16,3 dəfə artmışdır. Doktorant qadınların cinsi bölgüdə pay çəkisi 15%-dən 46%-ə yüksəlmişdir. Bu bir daha göstərir ki, son illərdə elmə marağın artması şəraitində qadınların elmi tədqiqatlara cəlb olunması daha sürətlə baş verməkdədir. Qadın elmlər namizədlərinin sayı 1990-cı ildə 2339 nəfərdən artaraq, 2009-cu ildə 3365 nəfərə çatmışdır, başqa sözlə, 44 faiz artmışdır. Müvafiq olaraq elmlər doktorlarının sayı 120 nəfərdən 250 nəfərə çatmışdır. Beləliklə, təhsil və elm sahəsində gender bərabərliyinin faktiki vəziyyəti ilə tanışlıq söyləməyə əsas verir ki, bu sahələrdə müəyyən mütənasibsizliyə, habelə şaquli gender seqreqasiya hallarının qeydə alınmasına baxmayaraq, son illərdə pozitiv dinamika müşahidə olunmaqdadır.

Dissertasiyanın IV fəsli **"Azərbaycanın ictimai-siyasi həyatında qadınların iştirakı"** adlanır və üç yarımfəsildən ibarətdir. **"Müstəqilliyin ilk dövründə Azərbaycan qadınlarının ictimai-siyasi fəallığı"** adlı birinci yarımfəsildə Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü şəraitində qadın hərəkatının inkişafının birinci mərhələsi nəzərdən keçirilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin bərpa olunması qadın hərəkatının keyfiyyətcə yeni mərhələyə qədəm basmasına şərait yaradırdı. 1990-cı illərin ilk yarısı müxtəlif qadın qurumlarının, o cümlədən qadın qeyri-hökumət təşkilatlarının meydana çıxması ilə əlamətdar idi. 1990-cı illərin əvvəllərində Qarabağ savaşı, o dönəmdəki rəhbərliyin səriştəsiz idarəçiliyi nəticəsində torpaqlarımızın işğalı, sosial-iqtisadi vəziyyətin olduqca ağırlaşması qadınlarımızın ictimai fəallığının məzmununa

---

[50] Salahova E. Qadınlar elmin müxtəlif sahələrini fəth edir / "Azərbaycanda gender problemləri: mövcud vəziyyət və əsas istiqamətlərin inkişafı" mövzusunda dəyirmi masanın materialları (14 mart 2012-ci il). Bakı: Afpoliqraf, 2012, s. 35-36

təsir göstərən amillərdən idi. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizin ictimai və iqtisadi həyatının bütün sferalarında yaşanan müsbət dinamika qadın hərəkatının canlanmasında da özünü göstərirdi. Qadınlarımız bir sıra mötəbər beynəlxalq forumlarda ölkəmizi layiqincə təmsil etmiş, Azərbaycan haqqında, Ermənistanın təcavüzkar siyasəti haqqında həqqətləri beynəlxalq qadın ictimaiyyətinə çatdırmışdılar.

Azərbaycan qadınlarının böyük bir nümayəndə heyəti (25 nəfər rəsmi, 70 nəfər qeyri-hökumət təşkilatlarının nümayəndələri) 1995-ci ilin sentyabrında qadınların IV Ümumdünya Pekin konfransında iştirak etmiş, bu böyük forumun bütün tədbirlərində, yığıncaq və görüşlərində fəallıq göstərmiş, çıxışlar etmiş, öz təklif və fikirlərini söyləmişlər. Azərbaycan nümayəndə heyəti bir sıra mühüm qərar və sənədlərin, o cümlədən Pekin bəyannaməsinin və Fəaliyyət platformasının qəbulunda yaxından iştirak etmişdilər.[51] 1996-cı ildə İstanbulda keçirilən "Habitat" konfransında ölkəmizin müxtəlif sahələrində çalışan, o cümlədən qaçqın və məcburi köçkünləri, şəhid ailələrini təmsil edən, müxtəlif təbəqələrdən olan 56 qadın, 1999-cu ildə "Haaqa sülhə çağırış" konfransında isə 100 qadın iştirak etmişdi.

Qadın hərəkatında baş vermiş keyfiyyət dəyişikliklərində yenidən gündəliyə gətirilmiş qadın qurultayları mühüm rol oynadılar. Ölkəmiz öz istiqlaliyyətinə qovuşduqdan sonra qadın hərəkatının yeni mərhələyə qədəm basması qadın qurultaylarının da məzmununa təsirsiz ötüşməmişdi. Bu mənada müstəqil Azərbaycan qadınlarının qurultayları mahiyyətcə yeni fenomen təqdim edir. 1998-ci ildən etibarən keçirilən müstəqil Azərbaycan qadınlarının qurultayları ölkəmizdə genişlənməkdə olan qadın hərəkatının inkişaf dinamikasına müsbət təsir göstərdi. Dövlət qadın siyasətinin uğurlu təzahürlərindən biri Azərbaycan qadınlarının hər 5 ildən bir keçirilən qurultaylarıdır; onlar nəzərdə tutulan vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsində qadınların özlərinin yaradıcı potensialının aktivləşdirilməsini və ictimai problemlərin müzakirəsində fəal iştirakını təmin etmək məqsədi güdməkdədir. Müstəqil Azərbaycan qadınlarının ilk qurultayı 1998-ci ilin sentyabrın 14-15-də toplaşmış və nəinki qadın hərəkatı, ümumilikdə ölkəmizin ən yeni ictimai-siyasi tarixində son dərəcə əlamətdar bir hadisəyə çevrilmişdi. Qurultayda ümummilli lider Heydər Əliyevin məzmunlu nitqi, həmçinin onun göstərişinə əsasən, müxtəlif nazir və qurumlarının başçılarının fəal iştirak etməsi müstəqil Azərbaycan dövlətinin gender strategiyasının etatist səciyyəli mühüm sistem xüsusiyyətindən xəbər verirdi.

[51] Ибрагимбекова Р.Ф. Гейдар Алиев и гендерное развитие в Азербайджане / Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti. Ümumrespublika konfransı. Bakı: Qafqaz universiteti, 2008, s.161

Müstəqil Azərbaycan qadınlarının Birinci qurultayının işində 2100-dən artıq qadın iştirak etmişdi. Heydər Əliyev qurultayda son dərəcə məzmunlu, zəngin konseptual məna və əhəmiyyətə malik nitqlə çıxış etdi.[52] Ulu Öndər qurultaydakı çıxışında qadınların iqtisadi fəaliyyətlərinin təşviqinin, eyni zamanda onların sosial müdafiəsinin yüksəldilməsinin vacibliyini vurğulamaqla bu istiqamətlərin dövlətimiz və onun başçısı üçün nə dərəcədə prioritet önəm daşıdığını göstərdi. 2003-cü ilin sentyabrın 27-də Azərbaycan qadınlarının artıq ikinci qurultayı keçirildi. Qurultayda respublikada qadın problemlərinin həlli ilə bağlı görülən məsələlər müzakirə edilmiş, qarşıda duran vəzifələri müəyyənləşdirmiş, gender siyasəti və qadın hərəkatının sonrakı inkişafına dairtəkliflər irəli sürülmüşdü. Qurultayın qəbul etdiyi qətnamədə son beş ildə Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında oynadıqları rol, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunda, habelə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsindəki xidmətləri yüksək qiymətləndirilir, qadınların ictimai-siyasi həyatda fəallığının artırılması üçün hakimiyyətin bütün qollarında qadınların daha geniş təmsil olunmaları yolunda səylərin bundan sonra davam etdirilməsi qeyd edilmişdi.[53]

Müstəqil Azərbaycan qadınlarının ilk qurultayları ölkəmizdə qadın hərəkatının institusionallaşmasında olduqca əhəmiyyətli hadisə oldu. Bu qurultaylar bir tərəfdən qadınlarımızın ictimai-siyasi fəallığının yeni səviyyəyə çıxmasına yardım edirdisə, digər tərəfdən dövlətin özünün qadın siyasətini müəyyənləşdirməsinə, şərait yaradırdı. Müstəqil Azərbaycan qadınlarının ilk qurultaylarının keçirilməsi, ümummilli lider Heydər Əliyevin təşəbbüsü sayəsində mümkün olmuşdu. Bu qurultaylar həmçinin ölkəmizdə postsovet gender düzəninin təşəkkülü kontekstində də əhəmiyyət kəsb edirdi.

Fəslin ikinci yarımfəslində **2004-2015-cü illərdə Azərbaycanda qadın hərəkatının yeni inkişaf mərhələsi** nəzərdən keçirilmişdir. 2006-cı il fevralın 6-da ölkə Prezidentinin Fərmanı ilə geniş səlahiyyətlərə malik olan yeni dövlət strukturunun – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) təşkil olunması qadın siyasətini keyfiyyətcə yeni mərhələyə çıxarmaqla, onun strateji məzmununu şaxələndirirdi. Sözügedən Komitə ölkəmizdə, xüsusən də bölgələrdə qadınların vətəndaş fəallığı və şüurunun artması, onların öz hüquqlarını daha dolğun şəkildə dərk etmələri, bu hüquqların əməli surətdə təmin edilməsi istiqamətində kompleks fəaliyyət göstərməklə son dərəcə mühüm funksiyanı yerinə yetirməkdədir. Qadın hərəkatı sosial fəallığın təzahürlərindən biridir. O vətəndaş cəmiyyətinin ayrılmaz ünsürüdür. İlham

---

[52] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. On yeddinci kitab (iyul, 1998 – oktyabr, 1998). Bakı: Azərnəşr, 2006, 528 s.

[53] Azərbaycan qadınlarının II qurultayının qətnaməsi. "Azərbaycan", 2003, 28 sentyabr

Əliyevin bu sahədə həyata keçirdiyi siyasi xətt qadınların ictimai-siyasi fəallığının artırılmasına, onların ictimai həyatın müxtəlif sferalarında rolunun yüksəldilməsinə, ölkənin modernləşməsi kontekstində milli özünəməxsusluqları nəzərə almaqla yeni gender düzəninin formalaşmasına əlverişli şərait yaradır. Təsadüfi deyildir ki, 2003-2013-cü illərdə Azərbaycanda qadınların ictimai-siyasi fəallığı istər kəmiyyət, istərsə də keyfiyyət baxımından yeni mərhələyə qədəm basmışdır. Kəmiyyət baxımından qadın təşkilatlarının, habelə gender problematikası ilə məşğul olan qurumların sayı artmış, coğrafi məkan etibarı ilə ölkənin daha çox bölgəsi qadın hərəkatının əhatə dairəsinə cəlb olunmuşdur. Əgər 2002-2003-cü illərdə ölkədə 40-dan artıq qeyri-hökumət qadın təşkilatı fəaliyyət göstərirdisə, 2008-ci ildə onların sayı 90-a, 2013-cü ildə isə 200-ə yaxınlaşmışdı. Keyfiyyət baxımından da mühüm dəyişikliklər baş vermiş və verməkdədir. Bu, hər şeydən öncə qadın təşkilatlarının sözügedən dönəmdə öz fəaliyyətini durmadan nəzəri və əməli cəhətdən təkmilləşdirməsində, ictimai problemlərin çözümünə dair səriştəli rəy və təkliflər təqdim etməsində, dövlət qurumları ilə bərabər bir çox qanunvericilik aktlarının və proqramların hazırlanmasında fəal iştirak etməsində özünü göstərmişdir. 2008-ci ilin sentyabrın 26-da keçirilmiş Azərbaycan qadınlarının III qurultayı respublikanın sosial-iqtisadi və demokratik inkişafının keyfiyyətcə müasir mərhələsində qadın hərəkatına yenidən nəzər salmaq, son illərdə bu sahədə görülən işlərə yekun vurmaq, habelə hazırkı mərhələdə gender siyasətində qarşıda duran vəzifələri dəqiqləşdirmək məqsədi daşımışdır. Azərbaycan qadınlarının III qurultayı eyni zamanda ölkəmizdə qadın siyasətinin həyata keçirilməsi. o cümlədən gender bərabərliyinin təminatı sahəsində əldə olunmuş müvəffəqiyyətləri, habelə qadın hərəkatının vüsətini nümayiş etdirmək məqsədi güddüyündən, onun işinə bir sıra dövlətlərin və beynəlxalq qurumların nümayəndələri geniş heyətlə qatılmışdı. Azərbaycan Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına ünvanlanmış təbrik məktubunda Azərbaycan qadınının cəmiyyətin bərabərhüquqlu üzvü olması, müstəqilliyin əldə olunması və möhkəmləndirilməsində xidmətləri, dövlət quruculuğu prosesinə layiqli töhfələr verməsi qeyd edilirdi.[54] Dövlət başçısı ümidvarlıq ifadə edirdi ki, qurultayda qəbul olunan qərarlar dövlətin qadınlarla bağlı həyata keçirdiyi siyasətin təkmilləşdirilməsinə xidmət edəcəkdir və "qadınlarımızın fəallığının artmasına təkan verəcəkdir". Qurultayda Heydər Əliyev fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva məzmunlu nitq ilə çıxış etdi. Azərbaycanın birinci xanımı öz məruzəsində Azərbaycan qadınının nailiyyətlər və müvəffəqiyyətlər panoramını

[54] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan qadınlarının III qurultayının iştirakçılarına təbrik məktubu. "Azərbaycan", 2008, 27 sentyabr

cızmaqla yanaşı, cəmiyyəti düşündürən sosial problemlərə də toxunmuşdu. Qurultayın Qətnaməsi isə ölkədə gedən demokratik, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda qadınların daha fəal iştirakına çağırmaqla yanaşı, dövlətin bu istiqamətdə yürütdüyü siyasətə tam dəstəyi ifadə edirdi. 2013-cü ilin iyunun 14-də baş tutmuş Azərbaycan qadınlarının IV qurultayı ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşması prosesinin yetkinlik mərhələsinə qədəm basmasının bariz göstəricisidir. Qadınların gender bərabərliyinin dolğun şəkildə gerçəkləşdirilməsi istiqamətində görülən işlərin, bu sahədə uğurların və problemlərin, habelə dövlət qərarlarının qəbul edilməsində qadınların rolunu gücləndirilməsinə dair təkliflərin müzakirəsi qurultayın əsas məqsədlərindən idi. Dövlət başçısı qurultaya təbrik məktubunda qadınları belə bir mötəbər məclisin keçirilməsi ilə əlaqədar təbrik etməklə yanaşı, qurultayın qadın təşkilatları qarşısında yeni vəzifələr müəyyənləşdirəcəyinə dair ümidlərini bildirirdi. Prezident belə bir əminlik ifadə edirdi ki, "ölkəmizdə aparılan sosialyönümlü siyasət, ilk növbədə, hər bir Azərbaycan ailəsinə, hər bir Azərbaycan qadınına, hər bir Azərbaycan övladına ünvanlanmışdır. Əminəm ki, qadınlarımız gələcəyə ünvanlanan bütün niyyətlərimizin, o cümlədən "Azərbaycan - 2020 : Gələcəyə Baxış" konsepsiyasının gerçəkləşdirilməsində fəal iştirak edəcək və Vətənimizin çiçəklənməsi naminə var qüvvələrini sərf edəcəklər". Qurultayda qadınların hüquqlarının müdafiəsinin müasir meyillərindən, qadın sahibkarlığından, siyasi proseslərdə onların rolundan, cəmiyyətin inkişafında qadın QHT-lərin əhəmiyyətindən, ölkədə mədəniyyətin və incəsənətin inkişafında qadınların nailiyyətlərindən və s. bəhs olunmuşdur.[55] Qurultay həmçinin Azərbaycan qadınlarının ictimai-siyasi fəallığının yüksəldilməsi məqsədilə hakimiyyətin bütün qollarında qadınların təmsilçiliyinin daha da genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davam etdirilməsini tövsiyə edirdi. Beləliklə, 2003-2013-cü illərdə Azərbaycan ölkə prezidenti İlham Əliyevin rəhbərliyi altında modernləşmə prosesi qadınların ictimai-siyasi fəallığının yüksəlişi, onların arasında təşkilatlanmanın artması ilə müşayiət olunurdu.

Fəslin üçüncü yarımfəsli "**Azərbaycanda qeyri-hökumət qadın təşkilatlarının yaranması və fəaliyyəti"** adlanır. Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin institusional əsaslar kəsb etməsi III sektorun da inkişafına müsbət təsir göstərdi. Sözün müstəqim mənasında qeyri-hökumət təşkilatlarının formalaşması da bu dövrə təsadüf edirdi. Qadın QHT-lər məhz 1990-cı illərin sonu – 2000-ci illərin əvvəllərində öz fəaliyyətlərini daha sistemli şəkildə

[55] Azərbaycan Respublikası Qadınlarının IV Qurultayının Qətnaməsi. "Azərbaycan", 2013, 14 iyun

qurmağa, işlərini beynəlxalq standartlara uyğunlaşdırmağa, xarici donorlarla əlaqələrini sahmana salmağa, hüquqi, sosial, mədəni sahələrdə, qadınların gender cəhətdən maarifləndirilməsi, qadınların sağlamlığı, qadına qarşı ailə zorakılığı və istismarına son qoyulması, qadın və ətraf mühit, qadın sahibkarlığının inkişaf etdirilməsi və s. istiqamətlər üzrə müxtəlif layihələr həyata keçirməyə müvəffəq olur. 1993-2003-cü illərdə Azərbaycan ictimai sektoru həqiqətən özünün hərtərəfli formalaşma dövrünü yaşayırdı. Ələlxüsus insan hüquqları və azadlıqlarına geniş yer ayıran ölkə Konstitusiyasının qəbulundan sonra ictimai sektor özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Bəhs edilən dövrdə qadın QHT-lərin sayında sürətli artım müşahidə olunmaqda idi: 1995-ci ildə onların sayı 18-ə, 2000-ci illərin əvvəllərində isə 40-a çatmışdı.[56] Bu təşkilat və cəmiyyətlər çoxşaxəli fəaliyyət göstərərək, üçüncü sektorun inkişafına öz töhfələrini verirdilər. Qadın qeyri-hökumət təşkilatları fəaliyyətlərini ümumən qadınların hərtərəfli inkişaf və tərəqqisi və onların hüquqlarının dolğun şəkildə təmin edilməsi sahəsində quraraq, qadınların sosial-iqtisadi durumunun yaxşılaşdırılması, onların arasında yoxsulluğun azaldılması, qadınların işlə təminatı, peşəyə yiyələnmələrində bərabər imkanların yaradılması, qadın təhsilinin inkişafı, qadınların gender cəhətdən maarifləndirilməsi, qadınların sağlamlığı, qadına qarşı ailə zorakılığı və istismarına son qoyulması, qadın sahibkarlığının inkişaf etdirilməsi və s. istiqamətlər üzrə müxtəlif layihələr həyata keçirirdi. O dönəmdə həmçinin ümumi maraqlar çərçivəsində formalaşan peşəkar, müəyyən problemlərin həlli istiqamətində çalışan təşəbbüs qruplarının əhəmiyyətli dərəcədə fəallaşması müşahidə olunurdu. Fəaliyyətlərini indi də davam etdirən bir çox qadın qeyri-hökumət təşkilatı məhz bəhs etdiyimiz dövrdə meydana çıxmışdır.

2003-cü ildən Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyev cənablarının hüquqi dövlət quruculuğunu yeni inkişaf mərhələsinə çıxarması ölkəmizdə qadın qeyri-hökumət təşkilatlarının da fəaliyyətinin təkmilləşməsi ilə müşayiət olunurdu. 2003-2007-ci illərdə sayca artan qadın QHT-lərin fəaliyyəti sosial həyatın demək olar ki, əksər sahələrinə sirayət etmişdi.

BMT-nin İnkişaf Proqramının 2003-cü ildə nəşr olunmuş Hesabatında üçüncü sektorun tədrici gender inkişafı qeyd olunurdu. Əgər 1990-cı illərin əvvəllərində bu sahədə hərc-mərclik, süstlük, zəif təşkilatlılıq, inamsızlıq, minimum əməkdaşlıq müşahidə edilirdisə, əsrin sonlarına doğru vəziyyət yaxşılığa doğru xeyli dəyişmişdi: sözügedən dövrdə qadın QHT-lər institusional inkişaf keçmiş, işlərini beynəlxalq standartlara uyğunlaşdırmış və püxtələşmişdilər. Bu illərdə meydana çıxan qadın QHT-ləri sırasında Azəri-Türk Qadınlar Birliyi, "Neftçi

[56] Nəcəfova S., Səfiyev S. Azərbaycanın qeyri-hökumət qadın təşkilatları. Bakı: Şirvannəşr, 2002, s.3

Qadınlar" Cəmiyyəti, Ziyalı Qadınlar Birliyi, "Nəcib xanımlar" İncəsənət Birliyi, "Sənsiz" Xeyriyyə Cəmiyyəti, Azərbaycan Qadınlarının Bakı Assosiasiyası, Azərbaycan qadınları Cənubi Qafqazda Sülh və Demokratiya uğrunda Cəmiyyəti, Gender və İnsan Hüququ Araşdırma Birliyi, Qadın Problemlərinin Tədqiqat Birliyi – Qadın İnstitutu, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi, Azərbaycan Jurnalist Qadınları Assosiasiyası, "Universitet Təhsilli Qadınlar" Cəmiyyəti, Azərbaycan Gender İnformasiya Mərkəzi və başqaları fərqlənirdi. Bu təşkilatlar öz fəaliyyətlərini şaxələndirərək, həm qadın hüquqlarının müdafiəsi, həm kimsəsiz qadınlara dəstək, həm maarifləndirmə, həm də araşdırma kimi çeşidli istiqamətləri əhatə edən müxtəlif layihələr həyata keçirirdilər. Qadın təşkilatları qaydaya salınmış beynəlxalq əlaqələri ilə seçilirdi. QHT-lər bir sıra dövlət əhəmiyyətli proqramların icrasına daha fəal cəlb olunurdular.

QHT sektorunun inkişaf tarixində 2007-ci ilin sonlarından başlayan dördüncü mərhələni Azərbaycan QHT sektorunun həyatında və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi tarixində keyfiyyət dəyişikliyi dövrü də adlandırmaq olar. Son illərədək Azərbaycan QHT-ləri üçün ən problemli məsələ öz layihələrini həyata keçirmək üçün vəsait əldə etmək idi. Ölkə daxilində ictimai sektora diqqət ayıran donorların azlığı cəmiyyətin tələbatına cavab verən bir çox təşəbbüslərin reallaşmamış qalmasına səbəb olurdu. Xarici donorlar isə qrant siyasətlərini daha çox təmsil etdikləri dairələrin mənafeyinə uyğun quraraq, əsasən bir qrup təşkilatla işləməyə üstünlük verirdilər. Azərbaycan dövlətinin durmadan artan iqtisadi gücü bu problemin də aradan qaldırılması üçün imkan yaratdı. QHT fəaliyyətinə aid başlıca məsələlər – dövlət orqanları ilə vətəndaş cəmiyyəti institutları arasında tərəfdaşlıq münasibətlərinin sabit və effektiv sisteminin yaradılması, QHT layihələrinin dövlət büdcəsindən maliyyələşdirilməsi, ictimai sektorun dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən problemlərin həllinə cəlb olunması və bu yöndə digər vacib məsələlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 iyul 2007-ci il tarixli Sərəncamı təsdiq olunmuş "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasında" öz əksini tapdı. Konsepsiya Azərbaycanda QHT inkişafının yeni mərhələsinin başlanğıcını qoydu. Bu sənədə uyğun olaraq, 2007-ci ilin dekabrında Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradıldı. Bununla da milli donor institutunun əsası qoyulmuş oldu. QHT-lərin yaxından iştirakı ilə şəffaf şəkildə formalaşdırılmış bu qurumun fəaliyyətə başlaması nəticəsində ölkədə ictimai fəallıq xeyli artdı. 2007-ci ilin dekabrından etibarən bu və ya digər səbəblərdən xarici donorlara çıxışı olmayan yüzlərlə QHT Şuranın maliyyə dəstəyi ilə artıq öz layihələrini həyata keçirmək imkanı əldə etdi. Nəticədə son illərdə ölkədə üçüncü sektorun coşqun inkişafını görürük: 2009-cu ilin sonlarında 2612 QHT rəsmi

qeydiyyatdan keçmişdisə, 2013-cü ilin fevralına dair statistikaya görə, onların sayı 3800-ü ötmüşdü. Bundan əlavə, sözügedən Şuranın fəaliyyəti nəticəsində bu QHT-lər təsnifatlandırılmış, onlar haqqında elektron və çap formada verilmişlər bazası yaradılmışdır. Şura 2009-cu ildə təkcə ailə, qadın və uşaq problemlərinin həllinə dəstək məqsədi güdən 21 layihənin gerçəkləşməsinə 151960 manat, 2010-cu ildə 47500 (14 layihə), 2013-cü ilin ilk 4 ayında 147700 manat (24 layihə) vəsait ayırmışdı[57]. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması, üçüncü sektora dövlət maliyyə dəstəyinin güclənməsi qadın QHT-lərinin kəmiyyət artımına təkan verdi. Əgər 2008-ci ildə ölkədə 90-a yaxın qeyri-hökumət qadın təşkilatı fəaliyyət göstərirdisə, hazırda bu rəqəm 200-ə çatır. Bu da onu göstərir ki, qadınlar artıq iqtisadi, sahibkarlıq, ictimai-siyasi və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində öz hüquqlarını daha yaxşı bilir və təşkilatlanmış formada fəaliyyət göstərirlər.

Azərbaycanda qadın QHT-lərin inkişaf xüsusiyyətlərindən biri də həm bölgələrdə yerli təşkilatların fəaliyyətinin vüsət alması, həm də baş ofisi Bakıda olan qadın təşkilatlarının regional layihələrin icrasına daha çox önəm verməsi çıxış edir. Bu da təsadüfi deyildir, belə ki, istər məişət zorakılığı, istər erkən nikah, istərsə də insan alveri halları məhz bölgələrdə daha geniş yayılmışdır. Son illərdə dövlət tərəfindən üçüncü sektorun maliyyə dəstəyinin artması qadın qurumlarına bölgələrdə daha çeşidli layihələr həyata keçirməsinə imkan vermişdir. Ölkəmizin fövqəladə geostrateji önəm daşıyan bölgəsində – Naxçıvanda da qadın təşkilatları fəaliyyətlərini genişləndirməkdədir. Burada ictimai birliklər dövlət qurumları ilə birlikdə əməkdaşlığın səmərəli və dayanıqlı mexanizmini yaradaraq, regionun ictimai-siyasi fəaliyyətini canlandırır.

Dissertasiyanın "Nəticə" hissəsində tədqiqatın əsas yekunları aşağıdakı kimi ümumiləşmişdir.

1970-1980-ci illərin ilk yarısında Heydər Əliyev birbaşa təşəbbüskarlığı və nəzarəti ilə qadınların ictimai istehsala cəlb edilməsi və onların əməyindən səmərəli istifadə olunması sahəsində həyata keçirilən kompleks sosial-iqtisadi tədbirlər nəticəsində onların əmək və məişət şəraiti xeyli yaxşılaşmış və ictimai istehsaldakı məşğulluq səviyyələri yüksəlmişdir.

1970-1980-ci illərdə qadın şuralarının fəaliyyətinin formal xarakter daşıdığı əksər müttəfiq respublikalarla müqayisədə Azərbaycanda vəziyyət fərqli idi. Belə ki, o dövrdə dövlət başçısı Heydər Əliyev vətəndaşların siyasi və sosial fəallığını, təşəbbüskarlığını daim dəstəkləyirdi. Qadın şuralarının fəaliyyətinin təhlili bizə onların obyektiv olaraq 4 mühüm funksiyanı yerinə yetirdiyini

---

[57] 1990-cı ildə Azərbaycan rəqəmlərdə. Qısa statistik məcmuə. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 1991, s. 35-37

söyləməyə əsas verir: 1. Qadınların əmək səfərbərliyinə alınması; 2. Partiya strukturları ilə qadınlar arasında vasitəçilik rolunun həyata keçirilməsi; 3. Qadınların hüquqi, sosial və mədəni cəhətdən maarifləndirilməsi; 4. Qadınların ictimai fəallığının təşviqi.

1980-ci illərin II yarısında Azərbaycanda qadın şuraları başlanmış yenidənqurma ilə əlaqədar keyfiyyətcə yeni mərhələyə qədəm basmışdır. Bu qurumlar sistem transformasiyaları dönəmində aşağıdakı vəzifələri yerinə yetirmişdilər: qadınların sosial, iqtisadi və mədəni tələblərinin daha anlaqlı və məzmunlu bir şəkildə artikulyasiya edilməsinə şərait yaradırdılar; qadınları fəal surətdə ictimai proseslərin iştirakçısına çevirirdilər; qadınların siyasi şüurunun yüksəldilməsinə yardım edirdilər; qadınların əmək və sosial hüquqlarının müdafiəsini uğurla həyata keçirirdilər. Həmin illərdə şuralar öz fəaliyyətləri ilə qadınların on illər boyu sovet etakratik rejimi çərçivəsində hakim siyasi-ideoloji mexanizmin bir detalı olan qadın təşkilatlarının tədricən avtonomlaşması üçün zəmin rolunu oynamışdılar.

Müstəqillik illərində Heydər Əliyevin həyata keçirdiyi qadın siyasəti bir neçə mühüm istiqaməti ehtiva edirdi. İlk növbədə o qadınların hüquqi statusunun təkmilləşdirilməsini, gender bərabərliyinin hüquqi aspektlərinin əməli surətdə təmin olunmasını nəzərdə tuturdu. İkincisi, bu siyasət qadınların sosial durumunun yaxşılaşdırılmasını, onların keyfiyyətli təhsillə təmin olunmasını, cəmiyyətdə ictimai mövqelərinin möhkəmləndirilməsini, sosial hüquqlarının hərtərəfli şəkildə həyata keçirilməsini ehtimal edirdi. Üçüncüsü, qadınların iqtisadi fəaliyyətlərinin təşviqi üçün kompleks addımlar atılırdı; qadın sahibkarlığının stimullaşdırılması, qadınların xalq təsərrüfatının müxtəlif sahələrində özlərini təsdiq etmələri üçün şəraitin yaradılması bu qəbildən idi. Dördüncüsü, həyata keçirilən tədbirlər qadınların siyasi həyatda daha fəal iştirakını, vətəndaş cəmiyyətin qurumlarının işinə canlı şəkildə qatılmasını dəstəkləməli idi. Beşincisi, aparılan siyasət qadınların mədəni yüksəlişini nəzərdə tuturdu.

Ölkə konstitusiyasında vətəndaşların, o cümlədən qadınların hüquq və azadlıqları barədə mövcud müddəalar 1998-2003-cü illərdə qəbul edilmiş qanunverici aktları ilə əməli surətdə gerçəkləşdirilməyə başlanılmışdı. Məhz bu illərdə biz gender bərabərliyinin de-jure səviyyədən tədricən de-facto səviyyəyə keçidi istiqamətində təsirli tədbirlərin görüldüyünün şahidi oluruq.

Azərbaycanda təhsil və elm sahəsində gender bərabərliyinin faktiki vəziyyəti deməyə əsas verir ki, bu sahələrdə müəyyən mütənasibsizliyə, habelə şaquli gender seqreqasiya hallarının qeydə alınmasına baxmayaraq, son illərdə pozitiv dinamika müşahidə olunmaqdadır.

Ölkəmizdə qadın sahibkarlığı sahəsində vəziyyəti dinamik aspektdə üç mərhələyə ayırmaq daha düzgündür. 1995-2002-ci illəri əhatə edən birinci mərhələdə ölkəmizdə özəlləşdirmənin hüquqi-normativ bazası formalaşmış, bazar iqtisadiyyatı mexanizmlərinin və özəl sahibkarlıq fəaliyyətinin konseptual əsasları yaradılmış, mülkiyyət münasibətləri sahəsində hərtərəfli islahatlara başlanılmışdır.

Azərbaycanın müasir dövrdə Prezident İlham Əliyevin rəhbərliyi altında modernləşmə prosesini yaşaması, bütün sferalarda dinamik və dayanıqlı inkişaf nümayiş etdirməsi, 1990-2000-ci illərin əvvəlləri üçün gündəmdə olan bir sıra ağır sosial problemlərin xeyli dərəcədə aktuallığını itirməsi istər qadın hərəkatına, istərsə də onun müəyyən mənada institusional mücəssəməsi olan qadın qurultaylarının proqram və məzmununa öz təshihlərini diktə etmişdir. Azərbaycan qadınlarının 2008 və 2013-cü illərdə keçirilmiş müvafiq olaraq III və IV qurultayları ölkədə qadın hərəkatının keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına dəlalət edir və bu mərhələnin məzmununu keçid dövrünü arxada qoymuş ölkəmizin modernləşməsinin yeni vəzifələri müəyyənləşdirir.

2003-cü ildən Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyev cənablarının hüquqi dövlət quruculuğunu yeni inkişaf mərhələsinə çıxarması ölkəmizdə qadın qeyri-hökumət təşkilatlarının da fəaliyyətinin təkmilləşməsi ilə müşayiət olunur. 2003-2007-ci illərdə sayca artan qadın QHT-lərin fəaliyyəti sosial həyatın demək olar ki, əksər sahələrinə sirayət etmişdir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı kitab və məqalələrində öz əksini tapmışdır:**

1.Körpəm. Kitab. Bakı: "Elm" nəşriyyatı, 2007, 132 s.
2.Azərbaycan beynəlxalq əlaqələrində nikah diplomatiyası (qədim Dövr-XVIII) Metodik vəsait. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2013, 68 s.
3.Nəsillərə örnək: Azərbaycan qadını (qədim dövr-orta əsrlər - XIX əsr). Bakı: "Elm və təhsil" nəşriyyatı, 2014, 160 s.
4.Azərbaycan qadını: sosial-iqtisadi və mədəni tərəqqidən sistem transformasiyalarına doğru ( 1970-1990-cı illərin əvvəlləri). Bakı: "Elm və təhsil" nəşriyyatı, 2014, 152 s.
5.Naxçıvan Muxtar Respublikasında qadın hərəkatının inkişaf tarixi. Dərslik. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2014, 228 s.
6.Azərbaycan Respublikasında dövlət qadın siyasəti və qadınların tərəqqisi. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2016, 545 s.
7.Naxçıvan ziyalıları qadın azadlığı və təhsili haqqında // AMEA-nın Elmi axtarışları, 2001, IV toplu, s. 252-256

8.Naxçıvan qadınlarının ictimai istehsala cəlb edilməsi məsələsinə dair // AMEA-nın Elmi axtarışları, 2001, VI toplu,s. 232-235
9.Naxçıvanda qadın təhsilinin inkişafı (XX əsrin 20-30 cu illəri) // Bakı Dövlət Universitetinin "Dil və ədəbiyyat" jurnalı, 2001, № 2 (31), s. 158-159
10.Naxçıvan qadınları İkinci Dünya Müharibəsi dövründə // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2002, № 9, s.113-115
11.Böyük Vətən Müharibəsi dövründə Naxçıvan qadınlarının Muxtar Respublikanın ictimai-siyasi və sosial-mədəni həyatında iştirakı // "Tarix və onun problemləri" jurnalı, 2002, №3, s. 75-77
12.Müasir dövrdə Azərbaycan qadınlarının sosial fəallığı problemi (Naxçıvan Muxtar Respublikasının materialları əsasında) // AMEA-nın Elmi axtarışları, 2004, XI toplu, s. 77-81
13.XX əsrin 30-cu illərində Azərbaycanda gənc qadın və qızların təhsilə, mədəni və ictimai həyata cəlb edilməsi təcrübəsindən // AMEA-nın Elmi axtarışları, 2006, XXVII toplu, s. 264-267
14.Respublikanın mədəni quruculuq işlərində qadınların rolu (1993-2003 cü illərdə) /Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, "Heydər Əliyevin dövlətçilik irsi və müstəqil Azərbaycanin inkişaf modeli" mövzusunda doktorant və disertantların elmi konfransının materialları. Bakı: Mütərcim, 2012, s. 249-255
15.Müstəqil Azərbaycan qadınlarının ilk qurultayları qadın hərəkatının inkişafında yeni mərhələ kimi // "Tarix və onun problemləri" jurnalı, 2013, № 4 s. 227-234
16.Heydər Əliyev və 1970-82-ci illərdə Azərbaycanda qadın siyasətinin bəzi məsələləri // Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2013, № 2(42), s. 165-172
17.Azərbaycan Respublikasında qadınların ictimai-iqtisadi fəallığı məsələləri // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2013, № 2(53), s. 96-103
18.XVI əsr Osmanlı qaynaqlarında Naxçıvan və Duzdağ / Naxçıvan: ilkin şəhər və Duzdağ beynəlxalq simpozium. Naxçıvan: "Əcəmi NPB", 2013, s. 75-86
19.Qadınların ictimai istehsalata cəlb olunması: kəmiyyət və keyfiyyət dəyişiklikləri "işləyən ana" sovet gender kontraktı kontekstində (1970-1980-ci illərin əvvəlləri) // Tarix və onun problemləri. Xüsusi buraxılış, Bakı: Bakı Universiteti, 2014, s. 120-125

20.Müasir dövrdə Naxçıvan Muxtar Respublikası qadınlarının sosial-iqtisadi vəziyyəti // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2014, №6 (62), s. 125-132
21.Heydər Əliyev və Azərbaycan Respublikasında Dövlət qadın siyasətinin əsas istiqamətləri // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri, 2014, cild 10 №1 s. 83-93
22.Azərbaycan Xalq Cümhuriyyəti və qadın hüquqları məsələsi // Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Xalq Cümhuriyyətinin 95 illiyinə həsr edilmiş respublika elmi konfransının materialları, Bakı: Təhsil, 2014, s. 84-90
23.İlham Aliyev and socio-political activity of women in Azerbaijan // Национальный педагогический университет имени М.П.Драгоманова, Украинская Академия Наук, «Гілея» науковой вестник, Киев, 2014, Выпуск №2(81), с. 253-258
24.1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində fundamental transfermasiyalar və Azərbaycan qadınlarının sosial-iqtisadi vəziyyəti // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, 2014, № 4 s. 115-121
25.1980-ci illərin ikinci yarısı 1990-ci illərin əvvəllərində Azərbaycanda qadınların sosial-siyasi fəallığı məsələlərinə dair // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, 2015, №1, s. 184-194
26.Heydər Əliyev və Azərbaycan Respublikasında gender qanunvericiliyinin təşəkkülünün bəzi məsələləri (1993-1997-ci illər) // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2015, №2 (67), s. 106-112
27.Heydər Əliyev və Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun əsas istiqamətləri // Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2015, №1(49), s. 199-206
28.Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu kontekstində dövlət qadın siyasətinin institusional əsaslarının formalaşması (1998-2003-cü illər) // İstanbul Aydın Üniversitesi Türkiye Araştırmaları Merkezi, “Küreselleşen dünyada kadin ve siyaset uluslararasi kongresi”, beynəlxalq elmi konfransin materialları. İstanbul, 2015, s. 739-755
29.Azərbaycan Respublikasının hüquqi məcəllələrinin gender aspektləri // İstanbul Aydın Üniversitesi Türkiye Araştırmaları Merkezi, “Küreselleşen dünyada kadin ve siyaset uluslararasi kongresi”, beynəlxalq elmi konfransin materialları. İstanbul, 2015, s. 755-771
30.XX əsrin 70-80 ci ilərində Naxçıvan MR qadınlarının ictimai-iqtisadi və sosial-mədəni inkişafı məsələləri // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri, 2015, cild 11 № 3, s. 98-108

31.Naxçıvanın muxtariyyət tarixinin gender aspektləri / Naxçıvanın muxtariyyəti tarixi nailliyyətdir (04-05 iyul 2014-cü ildə keçirilmiş beynəlxalq konfransın materialları). Naxçıvan, 2015, s. 127-131
32.Involvement of women in social production: quantitative and qualitative changes in the context of the soviet gender contract "working mother" (1970 - early 1980s) // The Caucasian International Research Center for Geohistory and Geopolitics. The Caucasus And The World International scientific journal. Tbilisi, № 20 2015, p. 127-130
33.Azərbaycan Respublikasında qadın qeyri-hökumət təşkilatlarının yaranması və fəaliyyəti tarixindən (1991-1997-ci illər) // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2015, №6 (71), s. 9-14
34.Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun yeni mərhələsi / Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, "Heydər Əliyev irsi və Azərbaycan Respublikasının davamlı inkişafı" mövzusunda doktorant və disertantların elmi-praktiki konfransının materialları. Bakı: Təhsil, 2015, s. 205-216
35.İnsan hüquqlarının gender ölçülməsi: beynəlxalq qadın hüquqları institutunun inkişafı // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, 2014, №1, s. 147-155
36.The gender dimension of human rights: the development of the Institute for Internatinoal Women's Rights // The International journal of Human Resources Management, vol 26, Issue 22, 2015, p. 70-87
37.Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı və qadınlar // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2016, № 6 (75), s. 56-65
38.Azərbaycan Respublikasında qadın qeyri-hökumət təşkilatları yeni inkişaf mərhələsində (2007-2013-cü illər) // Naxçıvan Dövlət Universiteti-nin Elmi əsərləri, 2016, № 6 (79), s. 120-125

**Аббасова С.З.**

## Роль женщин в общественно-политической, социально-экономической и культурной жизни Азербайджанской Республики (1970-2015-е гг.)

### РЕЗЮМЕ

В диссертационной работе комплексно исследуется роль азербайджанских женщин в различных областях жизни страны с 1970 - по 2015 годов. Работа состоит из введения, четырех глав, заключения и списка использованных источников и литературы.

*Введение* включает актуальность проблемы, хронологические рамки, степень изученности проблемы, источниковую базу и методологическую основы исследования, цели и задачи, научную новизну, теоретическую и практическую значимость диссертации.

*Первая глава «Женщины Азербайджана в 1970-ых – начале 1990-ых годов»*, состоит из двух параграфов. В них изучается опыт женской политики в Азербайджане в указанный период, достижения и недостатки в ее осуществлении. Особо выделяются роль и заслуги Гейдара Алиева в разработке и проведении основных направлений государственной женской политики в республике.

Рассматриваются основные формы участия женщин в общественной жизни. Анализируется социально-экономическое положение женщин в период системной трансформации в конце 80-ых – начале 90-ых гг. Отмечается, что в этот период, когда в стране произошли крупные социальные и политические катаклизмы, наиболее уязвимой категорией населения являлись именно женщины.

*Во второй главе «Государственная женская политика в Азербайджанской Республике»*, состоящий из 3-ех подразделов, всесторонне раскрываются содержание и основные направления государственной женской политики. Рассматриваемые в главе вопросы хронологически разделены на три периода. В первом параграфе прослеживается процесс формирования нормативно-правовой базы государственной женской политики в 1993-1997-ом гг. В последующие, 1998-2003-ие годы были определены институциональные основы и стратегические направление государственной женской политики в стране. Все эти вопросы подробно рассматриваются во втором параграфе главы. С избиранием Ильхама Алиева главой государства в 2003-ем году, начинается новый этап в осуществления государственной женской политики, которая явилась творческим продолжением стратегического курса Гейдара Алиева. В третьем подразделе анализируются особенности и характерные черты женской политики после 2003-го года.

*В третьей главе «Участие женщин в социально-экономической и культурной жизни Азербайджана»* изучается роль женщин в экономической и культурной жизни страны. Рассматриваются социально-экономические аспекты гендерного вопроса в Азербайджане, дается научный анализ социально-культурного развития азербайджанских женщин, рассматриваются этапы развития женского предпринимательства в стране и имеющиеся в этой области проблемы.

*Четвертая глава, названная «Участие женщин в общественно-политической жизни Азербайджана»* также состоит из 4-х подразделов. При изложении материалов главы автор придерживался хронологического принципа. Первый подраздел «Общественно-политическая активность женщин Азербайджана в первые годы независимости» охватывает период до 2003-го года. В параграфе исследованы некоторые аспекты общественно-политической активности женщин и женского движения в целом. Освящены съезды женщин независимого Азербайджана, определившие содержание взаимоотношений женского движения с органами власти. Во втором параграфе анализируется развитие женского движения в 2004-2015 годах. Изучается роль съездов женщин в контексте динамики женского движения. Отмечается благотворное влияние курса на модернизации, проводимого президентом Ильхамом Алиевым, на развитие женского движения в стране. Третий параграф посвящён изучению вопроса возникновения и деятельности неправительственных женских организаций. Рассматривается роль и место женских организаций в строительстве гражданского общества, этапы развития и характерные черты женского третьего сектора.

В Заключении диссертации излагаются краткие научно-теоретические выводы, к которым пришел автор в процессе исследования. Даются конкретные предложения и рекомендации по совершенствованию государственной женской политики и развитию женского движения.

Abbasov S.Z.

# The role of women in social-political, socio-economic and cultural life of the Republic of Azerbaijan (1970-2015)

## SUMMARY

This thesis comprehensively explores the role of the Azerbaijani women in the various areas of the country life from 1970 to 2015. The work consists of the introduction, four chapters, conclusion and list of used sources and literature.

*The introduction* includes the urgency of the problem, the chronological framework, the degree of scrutiny of the problem, the source base and methodological bases of the research, goals and objectives, scientific novelty, theoretical and practical significance of the thesis.

*The first chapter, "Women of Azerbaijan in the 1970s - early 1990s"*, consists of two sections. They study the experience of women's policy in Azerbaijan during the period, the achievements and shortcomings in its implementation. Special emphasis is given to the role and merits of Heydar Aliyev in the development and implementation of the main directions of the state women policy in the country.

The main forms of women's participation in public life are considered here. It analyzes the socio-economic status of women in the period of systemic transformation in the late 80s - early 90s. It is noted that in this period, when the country experienced major social and political upheaval, the most vulnerable population categories were just women.

*The second chapter, "State women policy in the Azerbaijan Republic",* consisting of 3 subsections, fully disclose the content and the main directions of the state policy on women. The matters covered in this chapter are chronologically divided into three periods. The first paragraph traces the formation of the legal framework of the state policy on women in 1993-1997. In the following years, 1998-2003, it was defined the institutional framework and strategic direction of state policy on women in the country. All of these issues are discussed in detail in the second paragraph of the chapter. With electing Mr. Ilham Aliyev as the head of the state in 2003 a new stage was started in the implementation of state women policy, which was a creative extension of the strategic course of Heydar Aliyev. The third paragraph analyzes the characteristics and features of the women policy after the year 2003.

*The third chapter*, *"The participation of women in social, economic and cultural life of Azerbaijan,"* studies the role of women in the economic and cultural life of the country. It considers the socio-economic aspects of the gender issue in Azerbaijan, gives the scientific analysis of the socio-cultural development of Azerbaijani women, and considers the stages of women's entrepreneurship development in the country and the existing problems in this area.

*The fourth chapter, entitled "Participation of women in socio-political life of Azerbaijan"* also includes 4 subsections. The author adhered to the chronological principle in presenting the materials of the chapter. The first sub-section "Social and political activity of Azerbaijani women in the early years of independence" covers the period until 2003, the year. Paragraph studies some aspects of the socio-political activity of women, and the women's movement as a whole. It sanctifies the women congresses of the independent Azerbaijan, which determined the substance of the relationship of women's movement with the authorities. In the second section it analyzes the development of the women's movement in the years 2004-2015. It studies the women's congresses role in the context of the dynamics of the women's movement. It notes a beneficial effect on the course of modernization, carried out by President Ilham Aliyev to the development of women's movement in the country. The third section is devoted to the study of the the issue of origin and activities of the non-governmental women's organizations. The role and place of women's organizations is considered in building civil society, development stages and characteristics of the female of the third sector.

The conclusion of the thesis summarizes the scientific and theoretical deductions concluded by the author in the research process. Concrete proposals and recommendations are given on the improvement of the state policy on women and development of women movement.

Çapa imzalanmışdır: 06.22.2017
Formatı: 60x90, 16/1, həcmi: 3.1 ç/v.
Tiraj: 100, Sifariş № 87

NDU-nun "Qeyrət" nəşriyyatının mətbəəsində çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**СЕВИНДЖ ЗАКИР кызы АББАСОВА**

# РОЛЬ ЖЕНЩИН В ОБЩЕСТВЕНО-ПОЛИТИЧЕСКОЙ, СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЙ И КУЛЬТУРНОЙ ЖИЗНИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ (1970-2015-е гг.)

# АВТОРЕФЕРАТ

**диссертации на соискание ученой степени доктора наук по истории**

**Специальность: 5503.02 – Отечественная история**

**НАХЧЫВАН – 2017**